


## Azərbaycandan Ermənistana daha bir tələb

*Layihənin transsərhəd təsiri ilə bağlı suallar tam aydınlaşdırılana və adekvat şəkildə baxılana qədər Ermənistan tərəfi zavodun tikintisini dərhal dayandırılmalıdır.Azərbaycan Hökuməti Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə - Arazdəyəndə iri metallurgiya zavodunun inşasının dayandırılmasını tələb edib.*

Səh.3


# UNİKAL

№26 (2160) 21 iyul 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




## Emin Əmrullayev tənqid hədəfində

### Elm və Təhsil Nazirliyi ətrafında nə baş verir?

*Son günlər ictimaiyyətin tanınmış nümayəndələrindən Elm və Təhsil Nazirliyinin (ETN) ünvanına tənqidlərin intensivləşdiyi müşahidə olunur. Bu sırada təhsil ekspertləri də, millət vəkilləri də var. Xüsusilə Milli Məclisin bəzi üzvlərinin Emin Əmrullayevin rəhbərlik etdiyi nazirliyin ünvanına ciddi iradlar səsləndirməsi maraq doğurur. Belə ki, öncə deputat Etibar Əliyev Elm və Təhsil Nazirliyinin yanında İctimai Şurada fəaliyyətini qeyri-mümkün hesab edib və Şura üzvlüyündən istefa verib. Sitat: " İctimai Şura yalnız bir adamın (Emin Əmrullayevin) təsiri altındadır və onun müdafiəsi ilə məşğul olur. Şura üzvlərinin nazir tərəfindən təlimatlandırılması isə açıq şəkildə görünürdü. Bir məsələni də qeyd edim ki, E. Əmrullayev elm və təhsillə bağlı prinsipial məsələlərin heç birində Şura ilə məsləhətləşmə aparmayıb".*

Səh.8

Səh.9



## Qarabağdakı separatçıların sülhməramlılarla birgə yeni oyunu

## "İcra hakimiyyəti sovetdən qalma sistemdir"



*Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev "Unikal"a müsahibə verib. O, payızda Azərbaycanda referendum keçiriləcəyi ehtimalından, hansı icra başçılarının vəzifədən azad oluna biləcəyindən, son günlər yenidən müzakirə olunan "Siyasi partiyalar haqqında" qanundan və partiyaların ən azı 5 min üzvü...*

Səh.4

## Sahil Babayevin üstüörtülü mesajı...



*Bir müddət öncə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev diqqətçəkən açıqlamalar verdi. O bildirdi ki, son illərdə əmək müqavilələrinin sayı 30 faiz artırılsa da, hələ də məşğul əhali arasında əmək müqaviləsi ilə çalışanların sayı azdır. Nazir əlavə etdi ki, qarşıdakı illərdə bu məsələyə...*

Səh.5

## Azərbaycanlı diplomat Mirzoyana tutarlı cavab verdi



*"2023-cü il iyunun 15-də Laçın sərhəd nəzarət buraxılış məntəqəsindən sərbəst gediş-gəlişi həzm edə bilməyən Ermənistan növbəti hərbi təxribata əl atıb, keçid məntəqəsi istiqamətində atəş açılıb və nəticədə bir Azərbaycan sərhədçisi yaralanıb".*

Səh.8

# Vüqardan Elza Seyidcahanla bağlı qalmaqallı sözlər



***"Elzanın Yazıçılar Birliyinə üzv seçilməyi böyük mübahisəyə səbəb oldu. Camaatın haqlı tərəfləri var. Mənimlə də münasibəti yoxdur. Çünki irad bildirdim ki, elə şeir yazma. Yazsan da, bir yerə qoy qalsın. Qayıtdı ki, fəlsəfəm var".***

Bu sözləri meyxanaçı Vüqar Əbdülov Əməkdar artist Elza Seyidcahanla bağlı açıqlamasında deyib. İfaçı "Meyxəbər" proqramında müğənninin Azərbaycan Yazıçılar Birliyinə üzv seçilməsinə münasibət bildirib. O, qeyd edib ki, insanların bunu tənqid etməsinə haqq qazandırır.

Vüqar Seyidcahanın şeirlərinin mənasız olduğunu vurğulayıb və onları ələ salıb: "Bəlkə gələcəkdə lazım olacaq. İndi aktyorlar onun şeirlərini iyrənc formada ifadə edirlər. "Qazanı açdım, kəfini yedim". Bu nədir? Vallah, qaytaracaqsan".

Qeyd edək ki, meyxanaçı ilə müğənni uzun illərdir küsülüdür. Vüqar Elzanın ünvanına "Elza şeir yazmasın. O, şeir yaza bilmir. Bir də görürsən, girir şeirlərin içinə "ana qaz, ananas"... Etmə belə başına dönüm sənin, Elza" sözlərini deyib. Seyidcahan isə "Bir insanın ki, həyatı eyş-işrətdən, gecə klublarından ibarətdirsə, mənim şeirlərimi başqa istiqamətə yozacaq" deyə, Vüqara cavab verib.

# "Qalmaqal lazım olsa, telefonumda elə səsyazıları var ki..." - Aynur Dadaşova



***"Həmkarlarımla dava etməyi sevmirəm. Hamıyla münasibətim yaxşıdır. Dost dediyim insan haqda pis danışa bilmərəm. Çünki özüm də bu sənətdəyəm. Hər kəsin öz qabiliyyəti var".***

Bu sözləri müğənni Aynur Dadaşova qonaq olduğu "Səhərin səsi" verilişində deyib. O, aralarında söz-söhbət yaşanan Niyam Salami haqda artıq söz danışmayacağını bildirib: "Niyam dostumdur, canımdır. Onun qabiliyyəti, qanacağı ora qədərdir. Ona nəsə tövsiyyə etməyəcəyəm ki... Az yaşı yoxdur. O, öz səviyyəsində, mən də öz səviyyəmdə danışıram. Mənim xanımlığım, şəxsiyyətim var. Özümə dəyər verdiyim üçün heç zaman dost haqqında artıq söz demərəm. Niyam istəmirsə məni danışdırmasın. Özü bilər. Deyim ki, Niyamla aramızda artıq sözlər olub, xeyr! Niyam haqqımda hansısa aqressiv və xoşagəlməz sözlər deyə bilər. Əgər bir insana dost deyib, çörək kəsirsənsə, necə onun haqda pis söz deyə bilərsən? Bəs zamanında dost deyirdin? Mənə gündəm və ya qalmaqal lazım olsa, telefonumda elə səsyazıları var ki, onu ortalığa çıxarsam, hamı ondan yazar. Mənə belə şeylər yox, sənətim, xanımlığım lazımdır".



# Afaq Başirqızı yenidən səhnəyə qayıtdı

***Xalq artisti Afaq Başirqızı uzun müddətdən sonra yenidən səhnəyə qayıdıb.***

Aktrisa "Unikal"a açıqlamasında bildirdi ki, bu barədə anidən qərar verib. "O qədər yorğunam ki... Birdən-birə bu tilsimi sındırdım. İstədim, oldu. Artıq 5 ilə keçmişdi ki, səhnədə yox idim", - deyə xalq artisti bildirib.

Qeyd edək ki, dünən Azərbaycan Dövlət Akademik Musiqili Teatrında "Toya bir gün qalmış" tamaşası oynanılıb. Afaq Başirqızı baş rolda çıxış edib.

***Ağarza Elçinoğlu***

# Emil Bədəlov: "Atam sağ olsaydı, müğənni olmazdım"



***Müğənni Emil Bədəlov açıqlaması ilə diqqətləri üzərinə cəmləyib.***

"Unikal" bizim.media-ya istinadən bildirir ki, sənətçi qonaq olduğu "Həmin Zaur" axşam şousunda dünyasını dəyişən atasından söz açıb.

Bədəlov bildirib ki, atası yaşasaydı, onun müğənni olmasına icazə verməzdi: "Atam Namiq Bədəlov mənim altı yaşım olanda dünyasını dəyişib. O da müğənni olub. Atam sağ olsaydı, mən müğənni olmazdım. Onun sənətini yadigar olaraq davam etdirirəm. Elə məqamlar olur ki, deyirəm ki, bu sənət mənlik deyil. Amma Allaha çox şükür ki, o mənə bu sənəti bəxş edib ki, ailəmi və balalarımı dolandıra bilirəm".

# Klarnet ifaçısı Hüseyn magistraturaya qəbul oldu

***Klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu magistraturaya qəbul olub.***

"Unikal" xəbər verir ki, bu barədə musiqiçi İnstaqram hesabında məlumat yayıb.

"Şükürlər olsun ki, mən də magistraturaya qəbul oldum. Heç inanmazdım ki, 39 yaşımda Azərbaycan Milli Konservatoriyasının magistr tələbəsi olacağam. Ali savadlı musiqiçi olmaq gözəldir", - deyə Hüseyn bildirib.

# "Pulu olanda Aygünü çağırır, kasıblayanda məni" - Ruhəngiz Allahverdiyeva

***Müğənni, Əməkdar artist Ruhəngiz Allahverdiyeva qatıldığı teleproqramlardan birində maraqlı açıqlama verib.***

"Unikal" lent.az-a istinadən bildirir ki, o toy qiymətlərindən danışarkən yerlilərindən gileylənib: "Mən Lənkəranlıyam axı. Bir də görürsən zəng gəlir, toya çağırılar. İmkanım yoxdu deyəndə qiyməti aşağı edirəm, bəzən deyirəm eybi yox, lap havayı oxuyaram, ansamblın pulunu verər. Bir dəfə elə biri zəng vurdu xahiş edirdi ki yerliyik, havayı oxumağa razı oldum. Danışdıq, elə razı olmuşdum ki, qayıdasan ki, pullu vaxtlarımda Aygünü, Röyanı çağırmışam, indi pulum yoxdu. Dedim, dayan, gələsi olmadım, Xeyir ola, pulun olanda Aygün, Röya, olmayanda mən yada düşürəm?".



# Azərbaycanlı diplomat Mirzoyana tutarlı cavab verdi

***“2023-cü il iyunun 15-də Laçın sərhəd nəzarət buraxılış məntəqəsindən sərbəst gediş-gəlişi həzm edə bilməyən Ermənistan növbəti hərbi təxribata əl atıb, keçid məntəqəsi istiqamətində atəş açılıb və nəticədə bir Azərbaycan sərhədçisi yaralanıb”.***

Bunu Azərbaycanın ATƏT yanındakı daimi nümayəndəsi, səfir Rövşən Sadıqbəyli Daimi Şurasının iclasında Ermənistan XİN rəhbərinə cavab olaraq deyib.

Səfirin sözlərinə görə, erməni qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin istifadə etdiyi yolu atəşə tutması məsuliyyətsiz addım olmaqla yanaşı, bu yoldan istifadə edən mülki əhalinin həyatını təhlükəyə atır və onların keçidinə mane olur: “Bu təxribatın yaratdığı ciddi təhlükəsizlik problemlərinə baxmayaraq, Azərbaycan Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) vasitəçiliyi ilə tibbi məqsədlər üçün keçid məntəqəsinin fəaliyyətini bərpa edib. Bununla belə, Laçın yolundan qeyri-qanuni fəaliyyət üçün sui-istifadə etmək cəhdləri dayanmır. Belə ki, 2023-cü il iyulun 11-də Azərbaycan Dövlət Sərhəd Xidməti BQXK-nın avtomobillərində müxtəlif növ malların qaçaqmalçılıq yolu ilə keçirilməsinə cəhdlər edilib və bunun da buraxılış məntəqəsindən keçidin müvəqqəti dayandırılmasına səbəb olduğunu bildirilib. Bu hadisələrlə bağlı açıqlama yayan BQXK-nın bu faktı təsdiqləməsi bir daha nümayiş etdirdi ki, yol boyu şəffaflığın təmin edilməsi üçün nəzarət-buraxılış məntəqəsinin yaradılması əslində gecikmiş bir tədbirdir”.

Rövşən Sadıqbəyli vurğulayıb ki, Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən zəruri istintaq-əməliyyat tədbirlərinin həyata keçirilməsi məqsədilə hərəkətin müvəqqəti dayandırılmasından sonra BQXK tibbi təxliyə fəaliyyətini bərpa edib: “Bundan başqa, Azərbaycan yaranmış vəziyyətin mümkün mənfi təsirini ciddi qəbul edərək, Ağdam-Xankəndi yolu ilə erməni sakinlərə humanitar yüklərin daşınmasını asanlaşdırmağa hazır olduğunu bildirib. Bu faktlar bir daha nümayiş etdirir ki, Laçın yolunda qondarma “blokada” ilə bağlı deyilənlər əvvəldən əsassızdır. Belə ki, Laçın yolu ilə bağlı bütün çağırışlar və humanitar çatdırılmaların təmin edilməsi Ermənistana yönəldilməlidir. Bu yolun normal tənzimlənən keçidinə ya təxribat, ya da qarayaxma kampaniyası ilə mane olan Ermənistandır.

Azərbaycanın yol boyu hərəkətə hansısa formada mane olması ilə bağlı ittihamları qəbul etmirik. Biz Ermənistan tərəfini bu humanitar məsələni siyasiləşdirməyə son qoymağa və Ağdam-Xankəndi yolu ilə çatdırılmaya mane olmamağa çağırırıq”.

Səfir onu da qeyd edib ki, Beynəlxalq Ədalət Məhkəməsinin (ICJ) 6 iyul 2023-cü il tarixli son qərarı Ermənistanın Azərbaycan tərəfindən sərhəddə keçid məntəqəsi yaratması ilə bağlı iddialarını mahiyyətcə rədd edib: “Azərbaycan öz suveren hüququ çərçivəsində bu keçid məntəqəsini sərhəddə quraşdırmaq üçün hərəkət edib”.

# Tahir Budaqov onu rəis təyin etdi



***Yevlax Rayon Statistika İdarəsinə yeni rəis təyin edilib.***

”Unikal”ın əldə etdiyi məlumata görə, bununla bağlı Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov əmr imzalayıb.

Əmrə əsasən, rəis vəzifəsinə Saleh Cəfərov təyinat alıb.

***Seymur Əli***

# Emin Əmrullayev tənqid hədəfində

## Elm və Təhsil Nazirliyi ətrafında nə baş verir?

***Son günlər ictimaiyyətin tanınmış nümayəndələrindən Elm və Təhsil Nazirliyinin (ETN) ünvanına tənqidlərin intensivləşdiyi müşahidə olunur. Bu sırada təhsil ekspertləri də, millət vəkilləri də var. Xüsusilə Milli Məclisin bəzi üzvlərinin Emin Əmrullayevin rəhbərlik etdiyi nazirliyin ünvanına ciddi iradlar səsləndirməsi maraq doğurur. Belə ki, öncə deputat Etibar Əliyev Elm və Təhsil Nazirliyinin yanında İctimai Şurada fəaliyyətini qeyri-mümkün hesab edib və Şura üzvlüyündən istefa verib. Sitat: ” İctimai Şura yalnız bir adamın (Emin Əmrullayevin) təsiri altındadır və onun müdafiəsi ilə məşğul olur. Şura üzvlərinin nazir tərəfindən təlimatlandırılması isə açıq şəkildə görünürdü. Bir məsələni də qeyd edim ki, E. Əmrullayev elm və təhsillə bağlı prinsipial məsələlərin heç birində Şura ilə məsləhətləşmə aparmayıb”.***



Bu açıqlamanın ardından deputat Fazil Mustafa isə deyib ki, “İctimai şuralar “İctimai İştirakçılıq haqqında” qanunun tələblərinə görə formalaşıblar: ”Amma zaman göstərdi ki, bunun mahiyyəti doğru anlaşılmadı. Əslində bu hansısa naziliyin və ya icra hakimiyyəti orqanının tərkibində məsləhət və ya məşvərət şurası deyil, yaxud hansısa nazirə dəstək şurası nəzərdə tutulmayıb”.

Başqa bir deputat Ceyhun Məmmədov isə yerli KİV-ə açıqlamasında Elm və Təhsil Nazirliyindən bəzi müəllimlərin hansısa sözü yaza, yaxud çubuqlu bölməni həll edə bilməməsi ilə bağlı açıqlamalarına sərt etirazını bildirib: ”Əgər biz bütün həqiqətləri demək istəyiriksə, onda nazirlik bu tələbələrin hansı universitetləri bitirdiyini desin, onlar da bundan nəticə çıxarsınlar. Bu ali təhsil müəssisələrinin adları ictimaiyyətə açıqlanmalıdır. Bir tərəfdən tələbələr məzun olur, diplom verilir, digər tərəfdən isə onlar təkrar sertifikasiyaya cəlb edilirlər. Buna həm vaxt, həm enerji, həm də dövlətin vəsaiti gedir”.

Millət vəkilinin bu açıqlamasından sonra onun Təhsil nazirindən tanışı ilə bağlı xahiş etdiyi və rədd cavabı aldığı üçün Emin Əmrullayevi qərəzli şəkildə tənqid etdiyinə dair iddialar gündəmə gəlib.

Ceyhun Məmmədov növbəti açıqlamasında yayılan iddiaların əsassız olduğunu bildirib: “Təəssüf ki, kimlərsə bizim tənqidlərimizdən nəticə çıxarmaq, mövcud problemləri həll etmək əvəzinə belə bir yola baş vurublar”. O, təəssüf hissi ilə əlavə edib ki, əksər hallarda bir sıra nazirliklərdə, xüsusən də Elm və Təhsil Nazirliyində deputatların müraciətlərinə o qədər də normal yanaşılmır və reaksiyasız buraxılır: “Milli Məclisdə hansısa bir məsələ ilə bağlı ünvanlanan müraciətə Elm və Təhsil Nazirliyi şablon cavablar verir. Həmçinin, bu qurum tərəfindən seçicilərin, ayrı-ayrı şəxslərin müraciətinə də adekvat reaksiyalar verilmir.”

Deputat Elm və Təhsil Nazirliyi ilə bağlı tənqidi çıxışlarının tam obyektiv olduğunu vurğulayıb.

Bundan başqa bir sıra tanınmış təhsil ekspertlərinin, eləcə də ictimaiyyətin üzdə olan nümayəndələrinin, ziyalıların da son vaxtlar Elm və Təhsil Nazirliyinin ünvanına ciddi tənqidlər səsləndirməsi nəzərdən qaçmır. Bütün bunların fonunda isə ictimai rəydə adıçəkilən nazirliyin rəhbəri Emin Əmrullayevin sözügedən posta təyin edilərkən ona göstərilən etimadı doğrultmadığına dair qənaət formalaşmağa başlayıb. Hətta onun əvəzlənə biləcəyinə dair də ehtimallar səslənir. İş o yerə çatıb ki, bəzi KİV-lərdə yeni təhsil nazirinin kim ola biləcəyi ilə bağlı müzakirələr gedir, iddialar səsləndirilir.

Obyektivlik naminə bildirək ki, ETN-in son illərdəki fəaliyyəti ilə bağlı əksini düşünənlər də var. Belə hesab edilir ki, Əmrullayevin xüsusilə sertifikatlaşdırma ilə bağlı gördüyü işlər təqdirəlayiqdir və həmin işlərin bir çox hallarda narazılıqla qarşılanmasına isə təbii yanaşmaq lazımdır. Bəzilərinin fikrincə, istənilən yenilik asan həzm olunmur və müəyyən müqavimətlə qarşılanır, kimlərisə qıcıqlandırır, küsdürürür, incik salır... Bu cür düşünənlərdən biri - təhsil eksperti Adil Vəliyevin açıqlamasından: ”Emin Əmrullayev gələndən sertifikasiya işi şəffaf aparılır. Yeniliklər təhsil sistemində başlanılıb, sadəcə, bura kölgə salmaq istəyən adamlar var. Nazir işləmək istəyir, qarşısına problemlər çıxarırlar. İllərlə satılmış saxta diplom, rüşvətlə məzun olmuş müəllimlər, həkimlər var. Bu səbəbdən də təhsil, səhiyyə sistemində problemlər var. İndi isə biz bunun düzəlməsini istəyirik”.

Lakin cəmiyyətin ən müxtəlif təbəqələrindən təhsil sahəsində köklü dəyişikliklərin ləng getməsi, elə sertifikatlaşdırma ilə bağlı hətta savadlı, təcrübəli müəllimlərin belə, narazılığına səbəb olan qüsurların ortaya çıxması onu deməyə əsas verir ki, biz ETN-in ünvanına tənqidləri hələ çox eşidəcəyik. Bu tənqidlər, ittihamlar fonunda E.Əmrullayevin öz postunda qalıb-qalmayacağını isə zaman göstərəcək.

***Toğrul Əliyev***

# Qarabağdakı separatçıların sülhməramlılarla birgə yeni oyunu



***Xəbər verildiyi kimi, iyulun 18-də Rusiya sülhməramlı kontingentinin müşayiəti altında növbəti dəfə Xankəndi-Kərkicahan-Xəlfəli yolu ilə ermənilərin döyüş mövqelərinə təminat vasitələrinin daşınması fiksə edilib. Onların hərəkəti bölmələrimizin texniki müşahidə vasitələri ilə qeydə alınıb. Videogörüntüdə Rusiya sülhməramlı kontingentinə məxsus hərbi texnikasının müşayiəti altında ermənilərin döyüş mövqelərinə təminat vasitələrinin daşınması aydın görünür.***

İki gün öncə həmçinin, separatçılar sülhməramlıların müşayiəti ilə Əsgəran-Ağdam yolunu bağlayıb, aksiya keçiriblər. Xankəndidəki erməni separatçı-terrorçuların "humunitar fəlakət şousu"na başlaması ilə dünyadakı erməni diasporu da təbliğat rıçaqlarını işə salıb. "Vaşinqton Tayms" nəşrində başdan-başa Türkiyə və Azərbaycana qarşı qərəz, yalan və böhtanlarla dolu yazı dərc olunub. "Ərdoğanın kobud oyunu: Türkiyə Ermənistanı cəzalandırmaq üçün Azərbaycanla birləşir" adlı məqalədə iddia edilir ki, Ərdoğan Türkiyənin təsir dairəsini genişləndirmək istəyir, qarşısındakı "manеə" isə "dünyanın ən qədim xristian xalqının yaşadığı" Ermənistandır". Məqalədə faktların təhrifi, yalan və böhtanlar o qədər artır ki, hətta guya 2020-ci il İkinci Qarabağ savaşında Azərbaycanın Türkiyə F-16-ları ilə hücum etdiyi də iddia edilir.

Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Qarabağda separatçıların aksiya keçirməsi nə Ermənistan, nə də Avropa tərəfindən ciddi qəbul edilmir: "Çünki bu provakasiyalar Moskva tərəfindən idarə olunur və əsas plan separatizmin davam etdirilməsinə hesablanıb. Hazırda Rusiya prosesi davam etdirir. Arayik Arutunyan və onun ətrafı nə qədər Xankəndində oturub, situasiya böhranlı şəkildə davam edəcək. Rusiya tərəfindən silahlı erməni birləşmələri vasitəsilə təxribatlar reallaşdırması mümkündür. Əgər, silahlı erməni birləşmələri yaxın günlərdə təxribatlara əl atarsa, Azərbaycan anti-terror əməliyyatlarına başlamalıdır. Ağdam-Xankəndi yolunun bağlanması, Rusiyanın erməniləri blokadada saxlamasıdır. Azərbaycan yalnız hərbi addımlarla prosesin həllinə nail ola bilər".

Onun sözlərinə görə, Rusiyanın Qarabag iqtisadi rayonunda yerləşən sülhməramlı qüvvələri öz missiyasından kənara çıxaraq Azərbaycanın təhlükəsizliyini təhdid edir və erməni separatizmini dəstəkləyir: "Kreml əldə olunan razılaşmaların əksinə hərəkət edərək konkret sülhün əldə edilməsinə qarşı mövqe ortaya qoyub. Rusiya nə Brüsselin, nə də özünün vasitəçiliyi ilə hər hansı bir sülhün əldə edilməsinə imkan vermir. Moskva çalışır ki, erməni separatizmi mövcudluğunu davam etdirsin, o da buradakı hərbi kontingenti daim saxlasın. Lakin Azərbaycan buna imkan verməyəcək. Dövlətimiz qətiyyətli şəkildə Brüssel və Vaşinqton formatını davam etdirərək sülhün əldə edilməsinə və reinteqrasiya prosesinə nail olacaq".

Atlas Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, erməni "Hraparak" nəşrində yayımlanan məqaləyə görə, Xankəndidə oturaq "aksiya" guya Rusiyaya qarşı çevrilə bilər, yəni separatçılar etirazlarının növbəti mərhələsində rusiyalı sülhməramlıların Qarabağdan çıxmasını tələb edəcəklər. Onun qənaətincə, separatçılar ondan narazıdırlar ki, Rusiya kontingenti Azərbaycana qarşı heç bir addım atmayıb, Laçın "dəhlizini" acmayıb: "Bunun davamı kimi separatçıların lideri Araik Arutunyan Ermənistanın baş naziri Nikol Paşinyanla birgə Qarabağda "beynəlxalq qüvvələrin" yerləşdirilməsini təmin etməyə çalışacaqlar. Bu xülyadır. Birincisi, heç bir dövlət və beynəlxalq təşkilat Qarabağa hərbçilərini göndərməz. Xarici mərkəzlərin bir qismi sözdə Ermənistana və erməni separatizminə dəstək versələr də, Azərbaycanla qarşıdurmaya gedərək vətəndaşlarını ölüm təhlükəsi olan bölgəyə göndərməyəcəklər. Bunu separatçılar da anlayırlar. İkincisi, separatçılar Rusiyadan narazı qalsalar da, (halbuki, rusiyalı hərbçilər Kremlin təlimatıyla erməni separatizminə dəstəklərini artırıblar) bu ölkənin hərbi kontingentinin bölgəni tərk etməsini tələb etməyəcəklər. Çünki narazılıqlarına rəğmən, separatçıların Rusiyadan ikiəlli yapışmaqdan başqa seçimləri yoxdur. Əgər "Hraparak" nəşrinin xəbərində kiçik də olsa, həqiqət payı varsa, yəni, separatçılar növbəti mərhələdə Rusiya hərbi kontingentinin bölgəni tərk etməsini reallaşdırmağa çalışacaqlarsa, bu, bizim işi asanlaşdıracaq, məqsədimiz elə Rusiya hərbi kontingenti olmadan separatçılarla məsələni birdəfəlik həll etməkdir".

Millət vəkili Azər Badamov isə deyib ki, Separatçıların əli hər yerdən üzüləndən sonra Xankəndidə aksiyalar keçirir, "humanitar böhran"la qarşılaşdıqlarını iddia edərək dünyaya car çəkirlər. Onun sözlərinə görə, aksiyalarda xristian amilini də qabardaraq xristian dünyasının dəstək göstərməsini tələb edirlər: "Bu aksiyalar və çağırışlar erməni lobbisinin planıdır. Onlar Xankəndidə təşkil olunmuş qurama aksiyalarda, yalan məlumatlarla beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışırlar. Erməni lobbisi bu yolla dünyanın diqqətini Xankəndiyə yönəltməyə, Ermənistanla bağlanacaq sülh prosesinə kölgə salmağa çalışırlar. Yayılan məlumatlara görə, Xankəndidə ermənilər arasında ikitirəlik yaranıb, hərəsi özünü bir yana dartır".

Müsahibimiz hesab edir ki, separatçıların və erməni lobbisinin təxribatçı cəhdləri onların sonuncu ümidləridir. Amma deputata görə, bütün bu cəhdlər boşunadır: "Azərbaycanın suveren ərazi bütövlüyünə heç kim təsir edə bilməz. Azərbaycan separatçıların və erməni lobbisinin ağlaşmalarına əhəmiyyət vermir və haqq yolda hərəkət etməkdə davam edir".

Deputat vurğulayıb ki, Qarabağda yaşayan ermənilərin yeganə çıxış yolu Azərbaycan qanunlarına tabe olub inteqrasiya olunmaqdır: "Kim Azərbaycanın tərkibində yaşamaq istəmirsə, özü üçün başqa yaşayış yeri tapsın. Ermənilər sülh müqaviləsinin imzalanmasını ləngidərlərsə, özlərinin işidir. Bu gün sülh müqaviləsinin imzalanması Ermənistan üçün daha vacibdir. Əgər Ermənistan erməni lobbisinin təsiri altına düşüb sülh müqaviləsini imzalamaqdan yayınarsa, bu, ancaq özlərinə ziyan olacaq. Biz sülh müqaviləsi imzalamadan da yaşaya bilərik. Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Bundan sonra sülh müqaviləsi imzalamasa belə ölkənin ərazi bütövlüyü göz bəbəyi kimi qorunacaq".

***M.İbrahimli***



## Muxtar Babayevin erməni həmkarına göndərdiyi məktubda nə yazılıb?

***Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Ermənistanın ətraf mühit naziri Hakob Simidyana məktub göndərib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. Məlumata görə, nazir qarşı tərəfdən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd Arazdəyəndə iri metallurgiya zavodunun tikintisini dayandırmağı tələb edib.

Məktubda bildirilir ki, Ermənistan və Azərbaycanın şərti sərhədindən bir neçə yüz metr aralıda yerləşən Arazdəyən kəndi yaxınlığında aparılan işlərin transsərhəd mənfi nəticələri ola bilər. "Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi" Konvensiyasına uyğun olaraq müvafiq prosedura başlanılıb.

Məktubda həmçinin konvensiyanın şərtləri xatırladılıb: "Ermənistan sözügedən fəaliyyətin ətraf mühitə təsiri barədə Azərbaycanı xəbərdar etməyə məcburdur. Lakin Azərbaycan bu layihə ilə bağlı Ermənistandan heç bir bildiriş almayıb".

Məsələ ilə bağlı BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı katibinə də müvafiq bildiriş göndərilib.

***Ağarza Elçinoğlu***

## Tələbə krediti üzrə müraciətlərin qəbuluna başlanılır

***20 iyul saat 12:00-dan 2023-2024-cü tədris ilinin payız semestri üçün təhsil tələbə krediti (TTK) üzrə müraciətlərin qəbuluna başlanılır.***

"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyi məlumat yayıb. Bildirilir ki, 2-ci və daha yuxarı kurslarda təhsil alan tələbələr kredit üçün müraciət edə bilərlər.

Magistratura təhsil səviyyəsi üzrə yeni qəbul olmuş tələbələr üçün yaxın günlərdə portal.edu.az üzərindən qeydiyyat başlayacaq. Həmin tələbələrin eyni zamanda TTK üçün müraciət etmək imkanı olacaq.

Bakalavr və subbakalavr təhsil səviyyələri üzrə qəbul olan tələbələr ixtisas seçimi etdikdən sonra təhsil müəssisəsinin qeydiyyatı zamanı paralel olaraq TTK müraciətlərini də göndərə biləcəklər.

Qeydiyyat üçün bu linkə daxil ola bilərsiniz: www.e-ttkf.edu.az

# Prezident Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi ilə tanış olub



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də Füzuli rayonunda olub.***

”Unikal” xəbər verir ki, dövlətimizin başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.

Məlumat verildi ki, layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur.

# XİN-dən Paşinyana CAVAB

***”Ermənistanın baş naziri Nikol Paşinyanın 20 iyul tarixində hökumətin iclası zamanı çıxışında, Brüsseldə liderlər səviyyəsində keçirilmiş görüşə istinadən Laçın yolu ilə bağlı son 8 ay ərzində təkrarladıqları iddianı bir daha xüsusi vurğulaması Ermənistan tərəfinin bu məsələdən siyasi məqsədləri üçün istifadə etməklə yanaşı, son zamanlar irəliləməkdə olan sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini nümayiş etdirir”.***

”Unikal” xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialara dair şərhində bildirilib.

”Vətən müharibəsindən sonra Laçın yolunda Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət sübut olunaraq, bu fəaliyyətin dayandırılmasına Azərbaycan tərəfindən çağırışlar edildiyi hər kəsə məlumdur. Bu fəaliyyətə məhəl qoyulmaması nəticəsində, Azərbaycan tərəfi beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycan qanunvericiliyi çərçivəsində Laçın sərhəd buraxılış məntəqəsini yaradaraq son bir neçə ay ərzində həm yüklərin, həm də erməni sakinlərin şəffaf və tənzimlənən qaydada keçidini təmin edib. Bu xüsusda, məntəqənin mövcudluğunun yolun bağlanması kimi təqdim edilməsi tamamilə yanlış yanaşmadır. Hətta, Beynəlxalq Ədalət Məhkəməsi 6 iyul tarixli qərarı ilə Ermənistan



tərəfinin məntəqənin aradan qaldırılması ilə bağlı müraciətini yekdilliklə rədd edərək, bu iddianın əsassız olduğunu təsdiq etdiyi məlumdur. Ermənistan tərəfinin 15 iyun tarixində məntəqəni atəşə tutması, Azərbaycan sərhədçisini yaralaması, qaçaqmalçılıq cəhdləri etməsi Ermənistanın son 30 ildə Azərbaycan ərazilərinə qarşı təcavüzü və qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini göstərib, bununla Laçın məntəqəsinin labüdlüyü bir daha təsdiqlənib.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycan tərəfindən təklif olunan “Ağdam-Xankəndi” yolunun yüklərin daşınması üçün vacib olduğu fikrinə məhəl qoymayan Ermənistan tərəfinin hər vəchlə bu yoldan imtina etməsi bölgədə “gərgin humanitar vəziyyət” iddiasının əsassız olduğunu və Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini sübut edir.

Azərbaycanın bölgədə “etnik təmizləmə” həyata keçirmək istiqamətində addımlar atdığı barədə Ermənistan tərəfinin iddiası olduqca yanlış və təhlükəlidir. Azərbaycanlılara qarşı kütləvi qırğınlar və deportasiyalar həyata keçirən Ermənistandan fərqli olaraq, Azərbaycan heç zaman erməni sakinlərə qarşı etnik təmizləmə siyasəti həyata keçirməyib. Qarabağı Azərbaycan ərazisi kimi tanıyan Ermənistan baş naziri, erməni sakinlərin Azərbaycana reinteqrasiyasını təşviq etmək əvəzinə, dialoqun hansı formada həyata keçirilməsinə dair şərtlər irəli sürməsi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı addım kimi qiymətləndirilir və qəbuledilməzdir.

Azərbaycan və Ermənistanın sərhədləri hansı çərçivədə delimitasiya etməsindən asılı olmayaraq, Ermənistanın erməni silahlı qüvvələri tam olaraq Azərbaycan ərazisindən çıxarılmaq öhdəliyini yerinə yetirməməsi, əraziyə maliyyə dəstəyini davam etdirməsi və ərazi iddialarını müxtəlif məktublarda, bəyanatlarda və çıxışlarda vurğulaması şəraitində prosesin uğursuzluğa düçar olmasına çalışdığı hər kəsə aydındır və bu istiqamətdə manipulyasiyalar əsassızdır.

Azərbaycan tərəfi yuxarıda qeyd edilən istiqamətlər üzrə Ermənistan ilə sülh prosesinin təşəbbüskarı kimi, bölgədə sülh, sabitlik və təhlükəsizliyin bərqərar olmasında maraqlıdır və danışıqlar prosesində fəal tərəfdir. Ermənistan tərəfi sülhdə maraqlıdırsa, sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir”, - XİN-dən qeyd olunub.

# MİQ-də dörd fənn üzrə imtahan nəticələri yenidən hesablandı

***Müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanlarına dair apellyasiya müraciətlərinin təhlili başa çatıb.***

”Unikal” xəbər verir ki, bu barədə Təhsil İnstitutunun İnsan Resursları Mərkəzindən məlumat verilib.

Bildirilib ki, tarix, biologiya, texnologiya və təsviri incəsənət fənləri üzrə aparılmış təhlillərə əsasən, imtahan nəticələri yenidən hesablanıb.

Namizədlərin imtahan nəticələri şəxsi səhifələrinə göndərilib.

# Ərdoğan Şimali Kiprin prezidenti ilə görüşüb

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şimali Kipr Türk Respublikasına (ŞKTR) səfəri çərçivəsində prezident Ersin Tatar ilə görüşüb.***

”Unikal” xəbər verir ki, Türkiyə və KKTC liderləri Lefkoşadakı ”Concorde” otelində təkbətək görüş keçiriblər. Görüşdən sonra iki lider Şimali Kipr Türk Respublikası vətəndaşlarına konsulluq xidmətlərinin göstərilməsi haqqında Saziş və Şimali Kipr Türk Respublikasının Qanunsuz Miqrasiyaya Qarşı Mübarizə Mərkəzinin yaradılması prosesində Türkiyənin göstərəcəyi dəstək haqqında Anlaşma Memorandumu imzalayıblar.



**ELAN**

**Hüseynov Samir Kərim oğluna məxsus “Samir” firmasının sənədləri itdiyi üçün etibarsız sayılır.**

# Penitensiar xidmətdə əməliyyat müşavirəsi keçirildi

***Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin Baş idarəsində Ədliyyə Nazirliyinin məsul əməkdaşları və Xidmətin tabe qurumlarının rəhbər heyətinin iştirakı ilə 2023-cü ilin birinci yarımili ərzindəki fəaliyyətin yekunlarına dair əməliyyat müşavirəsi keçirilib.***

”Unikal” xəbər verir ki, Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə polkovniki Mirsaleh Seyidov müşavirəni açaraq ilk növbədə möhtərəm Prezident İlham Əliyev tərəfindən Ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi vəzifəsinə təyinatını təkcə ona deyil, Penitensiar xidmətin kollektivinə göstərilən böyük inam və etimad olduğunu vurğulayaraq sağlam meyarlar üzərində dövlətçiliyə və dövlətə sədaqətlə xidmət edərək bundan sonrada yüksək əzmlə çalışaraq müsbət nailiyyətlər əldə olunacağını qeyd etdi. Çıxışı zamanı Nazir müavini bildirdi ki, Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla addımlayan müstəqil Azərbaycan bu gün ən güclü dövrünü yaşayır, möhtərəm Prezidentin rəhbərliyi ilə yeni strateji nailiyyətlərə müvəffəq olur, milli dövlətçilik tariximizin növbəti şərəfli və qürurlu səhifələri yazılır. İşğaldan azad edilmiş, üçrəngli bayrağımızın qürurla və əzəmətlə dalğalandığı ərazilərə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər bir səfəri təntənəli zəfər yürüşünün davam etdiyini göstərir, qalib Azərbaycanın Böyük qayıdışı, dayanıqlı və layiqli məskunlaşmanı yüksək səviyyədə təmin etmək iqtidarında olduğunu dünyaya nümayiş etdirir.

Bu gün hər birimiz dövlət başçısına layiqli yardımçı olmaq üçün daha məsuliyyətlə çalışaraq üzərimizə düşən vəzifələri şərəflə yerinə yetirməliyik.

Nazir müavini hesabat dövrü ərzində Penitensiar sahədə görülmüş işlər, yol verilmiş nöq-



sanlar və qarşıda duran hədəflər barədə məlumat verərək bildirdi ki, Azərbaycan xalqının Ümummilli Lideri Ulu Öndər Heydər Əliyevin 100 illik Yubileyi Xidmətin bütün qurumlarında yüksək minnətdarlıq hissi ilə geniş qeyd olunmuş, yubiley münasibətilə ölkə başçısının 801 məhkuma şamil olunan Əfv Sərəncamı vaxtında və qüsursuz icra edilmişdir. Penitensiar müəssisələrdə əməliyyat şəraiti sabit saxlanılmış, həbs edilmiş şəxslərin və məhkumların hüquqlarının daha etibarlı qorunmasına yönəlmiş tədbirlər davam etdirilmişdir. Penitensiar xidmətin fəaliyyətində müsbət nailiyyətləri qeyd etməklə yanaşı yolverilmiş nöqsanların qısa zamanda aradan qaldırılması üçün zəruri tədbirlərin görüləcəyini bildirən Nazir müavini hər bir əməkdaşın fəaliyyətində qanunçuluq, dövlətə - dövlətçiliyə sədaqətli xidmət prinsipini rəhbər tutmağa borclu olduğunu diqqətə çatdırdı və qeyd etdi ki, korrupsiyaya şərait yaradan hallarla bağlı sərt mübarizə aparılacaq ən ciddi tədbirlər görüləcəkdir.Daha sonra Nazir müavini Penitensiar xidmətin fəaliyyətində innovativ texnalogiyaların tətbiq ediləcəyini bütün fəaliyyət istiqamətlərinin daha səmərəli təşkil olunacağını diqqətə çatdırdı.

Müşavirənin davamında penitensiar müəssisə rəhbərlərinin çıxışları dinlənildi, Nazir müavini tərəfindən Ədliyyə nazirinin əmrləri ilə növbəti yüksək rütbə almış əməkdaşlar təntənəli şəkildə təbrik edildi, rəhbər vəzifələrə yeni təyinatlarla bağlı əmrlər şəxsi heyətin diqqətinə çatdırıldı.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Azərbaycandan Ermənistana daha bir tələb




***Layihənin transsərhəd təsiri ilə bağlı suallar tam aydınlaşdırılana və adekvat şəkildə baxılana qədər Ermənistan tərəfi zavodun tikintisini dərhal dayandırılmalıdır.***

Azərbaycan Hökuməti Ermənistan tərəfindən Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə - Arazdəyəndə iri metallurgiya zavodunun inşasının dayandırılmasını tələb edib.

Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin adından Ermənistanın ətraf mühit nazirinə ünvanlanan məktubda bildirilib ki, Ermənistanla Azərbaycan arasındakı şərti sərhəddən bir neçə yüz metr aralıda yerləşən Yerasx qəsəbəsi (Arazdəyən) yaxınlığında həyata keçirilən və transsərhəd təsiri ola biləcək fəaliyyətlə bağlı "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"da (Espo Konvensiyası) nəzərdə tutulmuş müvafiq prosedura başlanılıb.

Xüsusi vurğulanıb ki, Espo Konvensiyasının 1-ci Əlavəsinə əsasən, metallurgiya zavodları açıq şəkildə əhəmiyyətli mənfi transsərhəd təsirə səbəb ola biləcək fəaliyyət kimi tanınır.

Espo Konvensiyasının 3.1-ci maddəsinə uyğun olaraq, Ermənistan qeyd olunan fəaliyyətin ətraf mühitə təsiri ilə bağlı Azərbaycanı xəbərdar etməyə borcludur. Lakin, təsirə məruz qalan Tərəf olaraq Azərbaycan Ermənistandan bu layihə ilə bağlı heç bir bildiriş almamışdır.

Vurğulanıb ki, qeyd olunanları nəzərə alaraq, Espo Konvensiyasının 3.7-ci maddəsinə uyğun olaraq, Azərbaycan təsirə məruz qalan Tərəf kimi ilkin mərhələdə Ermənistandan layihənin mənfi transsərhəd təsiri ilə bağlı müzakirələrin aparılması məqsədilə məlumat mübadiləsinin aparılmasını tələb edir.

Eyni zamanda Azərbaycan Hökuməti layihənin transsərhəd təsiri ilə bağlı suallar tam aydınlaşdırılana və adekvat şəkildə baxılana qədər Ermənistan tərəfindən zavodun tikintisinin dərhal dayandırılmasını tələb edib.

Məsələ ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının icraçı katibinə də müvafiq bildiriş ünvanlanıb.

# Milli Mətbuatın 148 illiyinə həsr olunmuş konfrans keçirilib

***Bakıda Milli Mətbuatın 148 illiyinə həsr olunmuş "Media qlobal transformasiyalar dövründə: ənənələrdə varislik, jurnalistika prinsipləri və ictimai maraqlar" mövzusunda konfrans keçirilir.***

"Unikal" xəbər verir ki, konfransda Mətbuat Şurasının sədri Rəşad Məcid, Audiovizual Şuranın sədri İsmət Səttarov, Medianın İnkişafı Agentliyinin əməkdaşları və digər media nümayəndələri iştirak edirlər.



Mətbuat Şurasının sədri Rəşad Məcid bildirib ki, builki konfrans həm də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə təsadüf edir. O, çıxışı zamanı Heydər Əliyevin mediaya diqqət və qayğısından danışıb. Rəşad Məcid həmçinin Azərbaycan mediasının keçdiyi bugünkü inkişaf yolundan bəhs edib.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli "Media haqqında" qanunun qəbulundan sonra görülən işlərdən danışıb. O bildirib ki, Azərbaycanın bütün ciddi media qurumları artıq öz məlumatlarını Media Reyestrinə daxil edib və bu proses yekunlaşıb.

Audiovizual Şuranın sədri İsmət Səttarov isə qeyd edib ki, XIX əsrdə "Əkinçi"nin çapı ilə möhkəm təməllər üzərində bünövrəsi qoyulan Azərbaycan mətbuatı, XXI əsrdə də öz missiyasını uğurla davam etdirir: "Bu missiya ilk növbədə maarifçilikdir, vətənpərvərlikdir. Azərbaycan dilinin saflığı və təmizliyini qoruyan, söz və ifadə azadlığı, təhsil və maarifləndirmə, qadın azadlığı ideyasını təbliğ edən, xurafata və cəhalətə qarşı kəskin çıxışlar edən mətbuatımızın əsas məsələsi milli kimliyimizin qorunması və dövlətçiliyimizin möhkəmləndirilməsi olub".

O əlavə edib ki, Azərbaycan ikinci dəfə müstəqillik əldə edəndən sonra, zamanın bütün sınaqlarından üzüağ çıxan milli mətbuatımız üçün də yeni dövr başlayıb.

"Mediamızın bu dövrü məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də bu gün mediaya doğma münasibət sərgiləyir. Məhz dövlət başçısı İlham Əliyevin diqqəti nəticəsində mediaya dəstək sistemli hala gəlib", - Şura sədri qeyd edib.

Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova deyib ki, "Media haqqında" qanunda ilk dəfə media savadlılığı öz əksini tapıb. O bildirib ki, bu istiqamətdə Agentlik xarici təcrübənin öyrənilməsinə və əməkdaşlığa davam edir: "Məsələn, Türkiyədə media savadlılığı ilə bağlı vəziyyət fərqlidir. Orada ibtidai təhsildə media savadlılığı öyrədilir. Bunun tədrisə salınmasında heç bir çap resursu hazılanmayıb. Məqsəd uşaqlara nəyisə əzbərlətmək yox, onları ümumi vəziyyətlə tanış etmək, müəyyən vərdişləri aşılamaq olub. Biz də media subyektləri və jurnalistlər üçün media savadlılığı mövzusunda davamlı olaraq təlimlər təşkil edirik. Eyni zamanda, müxtəlif kateqoriyadan olan şəxslərlə media savadlılığı ilə bağlı konfranslar keçirir və cəmiyyətin media savadlılığının artılmasına çalışırıq".

# Elçin Quliyevə yeni müavin təyin edildi

***Dövlət Sərhəd Xidməti rəisinə yeni müavin təyin edilib.***



"Unikal" xəbər verir ki, general-leytenant Rəsul Tağıyev DSX rəisinin Şəxsi Heyətlə iş üzrə müavini təyin olunub.

Qeyd edək ki, Rəsul Tağıyev bundan əvvəl DSX Çevik Hərəkət Qüvvələrinin komandanı olub.

Rəsul Afiq oğlu Tağıyev 18 avqust 1976-cı ildə anadan olub. O, 2004-cü ildə "Hərbi xidmətlərə görə", 2005-ci ildə "Vətənə xidmətə görə", 2010-cu ildə "İgidliyə görə", 2012-ci ildə "Azərbaycan Bayrağı", 2013-cü ildə II dərəcəli "Vətənə xidmətə görə", 2016-cı ildə I dərəcəli "Vətənə xidmətə görə", 2019-cu ildə III dərəcəli "Rəşadət", 2020-ci ildə "Zəfər" orden və medalları ilə təltif edilib. 2018-ci ildə "general-mayor", 2022-ci ildə "general-leytenant" ali hərbi rütbəsi verilib.

Vətən müharibəsi başlayan zaman Rəsul Tağıyev Dövlət Sərhəd Xidmətində Döyüş Hazırlığı üzrə Baş İdarənin rəisi olub. O, Cəbrayıl və Zəngilanın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərə komandanlıq edənlərdən biri, habelə cənub cəbhəsinin ən hündür 2 zirvəsi - Bartaz və Şükürataz yüksəkliklərinin işğaldan azad edilməsi üzrə hərbi əməliyyatların rəhbəri olub, "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medallarını alıb.

17 iyul 2021-ci ildə Rəsul Tağıyev Dövlət Sərhəd Xidməti Döyüş Hazırlığı üzrə Baş İdarənin rəisi vəzifəsindən azad edilərək Dövlət Sərhəd Xidməti Çevik Hərəkət Qüvvələrinin komandanı vəzifəsinə təyin edilib.

***Anar Kəlbiyev***

# AMEA Ramiz Mehdiyevin adını bu siyahıdan çıxardı



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) sabiq prezidenti Ramiz Mehdiyevin adı qurumun saytında sabiq prezidentlər siyahısında yer almayıb.***

"Unikal" xəbər verir ki, qurumun science.gov.az saytında "AMEA haqqında" bölümündə 10 sabiq prezidentin adı qeyd olunub. R. Mehdiyevin adı isə siyahıdan çıxarılıb.

"Mənim adımın Azərbaycan Milli Elmlər Akademiyasının sabiq prezidentləri siyahısından çıxarılması düzgün deyil. Hesab edirəm ki, bu, özbaşınalıqdır". Bunu "Unikal"a açıqlamasında AMEA-nın sabiq prezidenti Ramiz Mehdiyev deyib. "Onların bunu etməyə ixtiyarı yoxdur. Bu, qanun pozuntusudur", - deyə o əlavə edib.

Xatırladaq ki, R. Mehdiyev 2019-2022-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasına rəhbərlik edib.

# Bu qaydalara dəyişiklik edildi - QƏRAR

***Nazirlər Kabineti "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bu barədə müvafiq sənədi Baş nazir Əli Əsədov imzalayıb. Sənədə əsasən, Qaydalara aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilib:

"1.5-1. Qeydiyyat şöbəsində və konsulluq idarəsində vətəndaşlıq vəziyyəti aktlarının, icra hakimiyyətinin nümayəndəliyində doğumun, nikahın bağlanmasının və ölümün dövlət qeydiyyatı aparılarkən yer adları mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Ermənistan Respublikasındakı yer adları isə Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının tövsiyələri nəzərə alınmaqla yazılır.".

2. 9.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.11. Verilən təkrar şəhadətnamələrdə və arayışlarda yer adları həmin sənədlərin verildiyi gün mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Təkrar şəhadətnamələrdə və arayışlarda Ermənistan Respublikasındakı yer adları yazılarkən bu Qaydanın 1.5-1-ci bəndinin tələbləri tətbiq edilir.".



# Politoloq XİN-ə səsləndi: Zaxarovaya cavab verin!

***Bir sıra xəbər saytının başlığına çıxarılan "Zaxarova Türkiyəyə meydan oxuyur" cümləsini əslində "Zaxarova Azərbaycana meydan oxuyur" kimi də yazmaq olar.***

"Unikal" xəbər verir ki, bunu "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu feysbuk hesabında yazıb.

O, Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidmətinin rəhbərini Rusiya rəsmisi Mariya Zaxarovaya cavab verməyə çağırıb.

"Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyip Ərdoğan NATO-nun Vilnüs zirvə toplantısında "Rusiya sülhməramlıları 2025-ci ilə qədər Qarabağı tərk etməlidir" cümləsi ilə Kreml sahibi Vladimir Putinə mesaj göndərməklə Azərbaycana dəstəyini ifadə etmişdi. Ona görə də Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Ərdoğanın bu açıqlamasına "Ankara Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli bəyanatının tərəfi deyil" deyərkən Türkiyə ilə yanaşı, Azərbaycanı da hədəf alıb. Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü rusiyalı həmkarının Ankara və Bakıya göndərdiyi "mesaja" reaksiya verməli, Türkiyənin Cənubi Qafqazda, Azərbaycanda, o cümlədən Qarabağda yeri və rolu barədə Moskvaya tutarlı cavab yayımlamalıdır", - deyə Elxan Şahinoğlu qeyd edib.

# "Naxçıvanda uşaq əməyinin istismarı hallarına rast gəlinir"- Komitə sədri

***"Son bir neçə aydır ki, Naxçıvanda uşaq əməyinin istismarı halları ilə rastlaşırıq. Sahibkarlar uşaqları əmək fəaliyyətinə cəlb edirlər".***



"Unikal" xəbər verir ki, bunu Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova deyib.

"Son 15 ilə yaxındır ki, burada cinayət məsuliyyətinə cəlb olunan uşaq yoxdur, erkən nikah məsələsi yox səviyyəsindədir. Bununla belə, son bir neçə aydır uşaq əməyinin istismarı hallarına rast gəlinir. Sahibkarlar uşaqları əmək fəaliyyətinə cəlb edirlər. Valideynlər də buna biganə yanaşırlar", - R.Seyidova bildirib.

O qeyd edib ki, Azərbaycan qanunvericiliyi uşaq əməyinin istismarını qadağan edir.

# "İcra hakimiyyəti sovetdən qalma sistemdir"

## Razi Nurullayev: "İcra hakimiyyətlərindən narazılığı yaradan vətəndaşlardan gələn şikayətlərin düzgün araşdırılmaması və onlara lazımi cavabın verilməməsidir"

***Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev "Unikal"a müsahibə verib. O, payızda Azərbaycanda referendum keçirilə biləcəyi ehtimalından, hansı icra başçılarının vəzifədən azad oluna biləcəyindən, son günlər yenidən müzakirə olunan "Siyasi partiyalar haqqında" qanundan və partiyaların ən azı 5 min üzvü toplaması məsələsindən danışıb.***

***-Razi bəy, son günlər payızda Azərbaycanda referendumun keçiriləcəyi ilə bağlı fikirlər səsləndirilir. 2023-cü ilin büdcəsində seçki xərclərinin artırılmasının da bununla bağlı olduğu deyilir. Bu il referendum ola bilərmi?***

-Referendumun keçirilməsi ehtimalını 2015-ci ildən bu günə qədər eşidirəm. Bununla bağlı birmənalı danışa bilmirəm. Dəqiq məlumatım yoxdur ki, payızda referendum olacaq, ya yox. Bir neçə dəfə icra hakimiyyətlərinin ləğvi ilə bağlı məsələ gündəmə gəlib, onlar tənqid olunublar. Prezident İlham Əliyev də bir neçə dəfə bu məsələ ilə bağlı sərt danışıb. Bunlar bəzi insanları o fikrə gəlməyə vadar edib ki, referendum olar və bunun nəticəsində icra hakimiyyətləri başqa bir strukturla əvəzlənə bilər. Nazirlər Kabineti ilə bağlı da hər hansısa yanaşma olar. Bütün bunların hamısı ayrı-ayrı şəxslərin səsləndirdiyi mülahizələrdir. Bu günə qədər mülahizədən əlavə heç bir fakt yoxdur. Reallıqda hələ bir şey görə bilmirəm.

***-Siz də icra hakimiyyətlərindən danışdınız. Bildiyiniz kimi, Quba və Daşkəsən rayonlarının icra başçıları vəzifəsindən azad olunub, hələlik onların yerinə təyinat yoxdur. Necə düşünürsüz, bundan sonar da icra başçılarının vəzifədən azad olunması tendensiyası davam edəcəkmi?***

-Hansı icra başçısının vəzifədən azad oluna biləcəyi ilə bağlı heç bir məlumatım yoxdur. Ona görə ki, bu cənab Prezidentin müstəsna hüququdur. Təbii ki, icra hakimiyyətlərindən narazı olanlar da var. Ümumiyyətlə, yanaşma ondan ibarətdir ki, hansısa icra başçısı işdən azad olundu, onun yerinə gələn yaxşı olacaq. Bu yanaşmaların özündə də müəyyən çatışmazlıq var. Başqa yanaşma olmalıdır ki, o sistem işləsin. İcra hakimiyyəti sovetdən qalma sistem idi. Mənim yanaşmam bundan ibarətdir ki, məsələlər strukturda deyil. Struktur idarəetməni yaxşılaşdırmaq, yeniliklər gətirmək üçündür. Amma insanların dəyişməsi islahat deyil. Bir icra başçısı getdi, başqası gəldi, o da nələri edə biləcək? Düşünürəm ki, müəyyən açılımlar olmalıdır. Məsələn, icra başçısı balaca bir rayona təyin olunur. Oraya investisiyanı haradan gətirəcək, nə cür şərait yaradacaq? İnsanların çoxu rayonlara sərmayə qoymaq istəmir. Hamı Bakıda yaşamaq istəyir. O baxımdan, icra hakimiyyətlərindən böyük gözlənti yaratmaq yanlışdır. Onlardan narazılıq yaradan isə bəzən insanların haqlı şikayətlərinin qulaqardına vurulmasıdır. Əsas narazılıq yaradan sosial məsələlərlə bağlıdır. Amma sosial məsələni də icra hakimiyyəti həll etmir. Tutaq ki, 3-5 nəfərə yardım verə bilər. İcra hakimiyyətləri yardım paylayan orqan deyil. Amma hamı icra hakimiyyətindən yardım, evinin damının düzəldilməsini, ona yeni ev tikilməsini, yol, işıq, qaz və s. istəyir. Belə götürəndə, bu sistemin özündə anlaşılmazlıq var. O zaman bələdiyyə nə üçündür? İcra hakimiyyətlərindən narazılığı yaradan vətəndaşlardan gələn şikayətlərin düzgün araşdırılmaması və onlara lazımi cavabın verilməməsidir. Ona görə də paytaxtda minlərlə məktub gəlir. Rayonda həll oluna biləcək məsələ Bakıya gəlib çıxır. Bunlar icra hakimiyyətləri haqqında mənfi rəy yaradır.

***-Son günlər siyasi partiyalarla bağlı məsələ də gündəmdir. Ədliyyə Nazirliyinin məlumatında qeyd olunub ki, 31 partiya öz təşəbbüsü ilə ləğv olunmaları barədə bəyanat verib, digər 27 siyasi partiya isə reyestrini təqdim edib. Nazirlik artıq 5.000 üzvün olması ilə bağlı partiyaların bəzilərinin müraciətinə cavab verib. Yəqin ki, siz də müraciət etmisiz. Bəzi partiyaların 5 min üzv toplamaqda çətinlik çəkməsi nə ilə bağlıdır?***



-Partiyaların bunu niyə toplaya bilmədiyini özləri bilər. Ola bilər sosial resursları yoxdur, maliyyə imkanları, təşkilatçılıq bacarıqları zəifdir və s. Bunu partiyalar dəqiq deyə bilər. Düşünürəm ki, proses artıq başlayıb, sənədlər verilib və Ədliyyə Nazirliyinin cavabını gözləmək lazımdır. Bəri başdan danışmaq Ədliyyə Nazirliyinə təzyiq kimi qiymətləndirilə bilər. Hər kəs sənədini verib və nazirliyin verəcəyi qərarı gözləmək lazımdır. Bunu indiki zamanda dartışdırmaq doğru yanaşma deyil. Ona görə ki, partiyaların sənədlərini araşdırırlar, baxırlar. Bu günləri istər Ədliyyə Nazirliyi, istərsə də "Siyasi partiyalar haqqında" qanundan danışmaq ona gəlib çıxır ki, ya bəri başdan özünü sığortalamaq istəyirsən, ya da hədə-qorxu gəlirsən, təzyiq göstərmək istəyirsən. İmkan vermək lazımdır ki, Ədliyyə Nazirliyi sənədləri araşdırsın, qərarlarını versin. Ondan sonra hər bir partiya ayrı-ayrılıqda öz fikirlərini açıqlayar. Biz də sənədlərimizi vermişik və gözləyirik.

***-Bir neçə dəfə də partiyaların sayının azaldılması ilə bağlı fikirlər səsləndirilib. Siz ölkəmizdə neçə siyasi partiyanın olmasını məqbul hesab edirsiz?***

-Dünyada elə bir standart yoxdur onunla müəyyənləşdirəsən ki, filan ölkəyə nə qədər siyasi partiya lazımdır. Bununla bağlı say limiti yoxdur. Partiyalar əgər 5 min üzv yığırsa, qanunla qeydiyyatdan keçirsə, ona dövlət də limit qoymur. Bunu toplamaq üçün güc lazımdır. Partiya böyük bir institutdur. Onu yaratmaq, idarə etmək, irəli aparmaq asan məsələ deyil. Əvvəl bizdə o məsələ çox asan idi. Burada da bir ciddilik lazım idi. "Siyasi partiyalar haqqında" qanunu dəstəkləmişdim, bu gün də dəstəkləyirəm. Qanun normaldır. Həmişə proseslərin başlanğıcı çətin olur. Dünyada gedən proseslərdən də görürük ki, 4-5 güclü partiya olur. Qalanlarının adı isə elə də bilinmir. Güclü partiyalar öndə olduğu üçün tanınır. Normal olaraq ölkədə 4-5 güclü partiyaya ehtiyac olur. Onlar aralarında rəqabət aparırlar, insanlara seçim verilir. 30 ildən çoxdur müstəqilik. Bizdə də siyasi partiyalarla bağlı proseslər xeyli əvvəl başlamalı idi. Bu sahədə xeyli gecikmişik.

**Anar Kəlbiyev**

# Sahil Babayevin üstüörtülü mesajı...

## Nazirin etirafının arxasındakı əsas sual: hələ də məşğul əhali arasında əmək müqaviləsi ilə çalışanların sayı azdırsa, günahkar kimdir?



***Bir müddət öncə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev diqqətçəkən açıqlamalar verdi. O bildirdi ki, son illərdə əmək müqavilələrinin sayı 30 faiz artırılsa da, hələ də məşğul əhali arasında əmək müqaviləsi ilə çalışanların sayı azdır. Nazir əlavə etdi ki, qarşıdakı illərdə bu məsələyə xüsusi diqqət yetiriləcək: "Qeyri-formal əməyin aradan qaldırılması və əməkhaqlarının leqallaşdırılması istiqamətində işlər aparılacaq".***

Tədbirin məqsədi insan kapitalına əsaslanan gələcəyə hazırlıqlı cəmiyyətin formalaşmasına zəmin yaratmaq, bu istiqamətdə peşəkarlarla müzakirələr aparmaqdır.

Xatırladaq ki, əmək müqaviləsi - işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir.

Bəzi hallarda işəgötürənlər tərəfindən işçilərlə əmək müqaviləsi əvəzinə xidməti müqavilə bağlanılır. Lakin xidməti müqavilə hər hansı xidmətin göstərilməsi məqsədi ilə sifarişçi və icraçı arasında bağlanılan mülki-hüquqi müqavilədir və mülki qanunvericiliklə tənzimlənir. Məsələn, tapşırıq müqaviləsi, podrat müqaviləsi və s.

Əmək müqaviləsi əvəzinə mülki-hüquqi müqavilələr bağlamaqla şəxslər Əmək Məcəlləsi ilə təsbit edilmiş bir sıra hüquq və imtiyazları itirmiş olurlar.

İndi isə gələk nazirin açıqlamasındakı iki önəmli məqama. Birincisi, Sahil müəllimin dediyi kimi, məşğul əhali arasında əmək müqaviləsi ilə çalışanların sayı hələ də azdırsa, bəs onda günahkar kimdir? Yalnız işəgötürənlərmi? Əlbəttə, xeyr!

Məsələ burasındadır ki, elə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Əmək Müfəttişliyi Xidməti fəaliyyət göstərir. Bu qurum əmək qanunvericiliyinə dövlət nəzarətini həyata keçirən orqandır, deməli, qeyri-formal əməyin aradan qaldırılmasına da birbaşa cavabdehdir!

Bir az da dəqiqləşdirək - əgər ölkədə hələ də məşğul əhali arasında əmək müqaviləsi ilə çalışanların sayı azlıq təşkil edirsə, burada adıçəkilən Xidmətin öz vəzifəsini layiqincə yerinə yetirməməsinin də həlledici rolu var.

İkincisi, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 192.7-ci maddəsində işəgötürən tərəfindən əmək qanunvericiliyində müəyyən edilmiş müddətdə işçiyə əmək kitabçasının açılmasına görə məsuliyyət nəzərdə tutulub. Belə ki, bu halda vəzifəli şəxslər 500 manatdan 1000 manatadək məbləğdə cərimə edilir.

Həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə də məsuliyyət nəzərdə tutulub. (192.1-ci maddə). Bu halla bağlı fiziki şəxslər 1000 manatdan 2000 manatadək məbləğdə, vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək məbləğdə, hüquqi şəxslər 20,000 manatdan-25,000 manatadək məbləğdə cərimə edilir.

İndi hətta əmək və əhalinin sosial müdafiəsi naziri də məşğul əhali arasında əmək müqaviləsi ilə çalışanların sayca azlığından şikayətlənirsə, onda məntiqlə Dövlət Əmək Müfəttişliyi Xidməti hər il kifayət qədər cərimələr tətbiq etməlidir, elə deyil? Belədirsə qoy onda bu qurum həmin cərimələrlə bağlı statistikanı ictimaiyyətə də açıqlasın və hamı görsün ki, əmək qanunvericiliyinin ən mühüm tələblərindən birini pozanlara qarşı hər hansı güzəşt edilmir!

O zaman Dövlət Əmək Müfəttişliyi Xidmətinin əmək müqavilələri ilə bağlı pozuntulara nələrəsə görə (!) göz yumduğuna dair cəmiyyətdə dolaşan söz-söhbətlərə də son qoyular, bu haqda deyilənlərin dedi-qoduda başqa bir şey olmadığına kimsədə şübhə qalmaz...

Eyni zamanda o da aydınlaşsın ki, Sahil Babayevin məşğul əhali arasında əmək müqaviləsi ilə çalışanların hələ də sayca az olması barədə dedikləri onun tabeliyindəki Xidmətin rəhbərliyinə üstüörtülü mesajı deyil. Sadəcə bir etirafdır. Hərçənd belə olan təqdirdə də haqlı sual ortaya çıxacaq: bəs onda təqsirkar kimdir? Əmək müqaviləsi bağlamaq işəgötürənin marağında deyil, vətəndaşa isə əmək müqaviləsindən öncə evinə bir qismət çörək aparacağı iş, maaş lazımdır.

Deməli, bu məsələdə ilk növbədə əmək qanunvericiliyinə dövlət nəzarətini həyata keçirən orqan maraqlı olmalıdır - yəni hazırda Vəli Quliyevin rəhbərlik etdiyi Dövlət Əmək Müfəttişliyi Xidməti!

Bunu biz demirik, bunu sadə məntiq deyir...

***Sənan Mirzə***

# Ermənistandakı yer adları Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq yazılacaq




***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb. Qərara əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda aşağıdakı dəyişikliklər edilir:

- Aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilir:

"1.5-1. Qeydiyyat şöbəsində və konsulluq idarəsində vətəndaşlıq vəziyyəti aktlarının, icra hakimiyyətinin nümayəndəliyində doğumun, nikahın bağlanmasının və ölümün dövlət qeydiyyatı aparılarkən yer adları mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Ermənistan Respublikasındakı yer adları isə Azərbaycanın tarixi toponimlərinə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasının tövsiyələri nəzərə alınmaqla yazılır.".

- 9.11-ci bənd aşağıdakı redaksiyada verilir:

"9.11. Verilən təkrar şəhadətnamələrdə və arayışlarda yer adları həmin sənədlərin verildiyi gün mövcud olan inzibati ərazi vahidlərinin adlarına uyğun yazılır. Təkrar şəhadətnamələrdə və arayışlarda Ermənistan Respublikasındakı yer adları yazılarkən bu Qaydanın 1.5-1-ci bəndinin tələbləri tətbiq edilir".

# Kəmaləddin Heydərov müşavirə keçirdi



***İyulun 20-də fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə Nazirliyin inzibati binasında müşavirə keçirilib.***

"Unikal" xəbər verir ki, nazir müavinləri, Nazirliyin müvafiq baş idarə, idarə, qurum və regional mərkəzlərinin rəislərinin iştirakı ilə keçirilən müşavirədə cari məsələlər, o cümlədən regional mərkəzlərin fəaliyyəti müzakirə olunub.

Müşavirədə çıxış edən nazir Kəmaləddin Heydərov ölkədə təbii və texnogen xarakterli fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə əlaqədar nazirliyin üzərinə düşən vəzifələrin icra vəziyyəti və qarşıda duran məsələlər barədə danışıb. Bu çərçivədə, nazir fövqəladə halların qarşısının vaxtında alınması məqsədilə nazirliyin nəzarət funksiyalarına malik qurumları ilə regional mərkəzlərin koordinasiyalı fəaliyyətinin əhəmiyyətini qeyd edib, bu istiqamətdə həlli vacib məsələlərə toxunub.

Sonra nazirliyin müvafiq qurum və regional mərkəzlərinin rəisləri aidiyyəti sahələr üzrə görülən işlər barədə məruzə ediblər.

Müşavirəyə yekun vuran nazir Kəmaləddin Heydərov fövqəladə hallarla mübarizə üzrə aidiyyəti qurum və regional mərkəzlərin üzərinə düşən mühüm vəzifələri xatırladıb, müvafiq tapşırıqlarını verib.

# 3 ayda Laçın buraxılış məntəqəsindən keçənlərin sayı

***Azərbaycanın Laçın yolunda sərhəd buraxılış məntəqəsi yaratması qanunsuz əməllərə son qoymaq üçün zəruri tədbir idi.***

Bunu Azərbaycanın ATƏT yanındakı daimi nümayəndəsi Rövşən Sadıqbəyli Daimi Şurasının iclasında çıxışı zamanı deyib.

O qeyd edib ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin hər iki istiqamətdə şəffaf və nizamlı keçidi üçün müvafiq şərait yaradılıb.

"Sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradıldığı tarixdən - aprelin 23-dən indiyədək 1 927 nəfər buraxılış məntəqəsindən istifadə edərək sərhədi keçib", - diplomat bildirib.



# Vilayət Eyvazov Türkiyə Jandarm Baş Komandanının müavini ilə görüşdü

***Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Baş Komandanının müavini ordu generalı Ali Çardakçının başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.***

Bu barədə ”Unikal”a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən bildirilib. Əvvəlcə cənab Ali Çardakçı və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzüb, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Daha sonra Şəhidlər Xiyabanındakı ”Əbədi məşəl” kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

İyulun 20-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, ulu öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun “Bir millət, iki dövlət” siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Baş Komandanlığı ilə münasibətlərin əməkdaşlığın genişləndirilməsinə böyük önəm verildiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Baş Komandanlığının böyük xidməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Ali Çardakçı Azərbaycana səfərindən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından, ölkəmizin dinamik, sürətli inkişafından, eyni zamanda, Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil bir quruma çevrilməsindən məmnun olduğunu bildirib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, ”Bir millət, iki dövlət” olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.

Daxili Qoşunların Baş İdarəsində daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədovun ordu generalı Ali Çardakçının rəhbərlik etdiyi nümayəndə heyəti ilə də görüşü olub.

General-leytenant Şahin Məmmədov Türkiyə Jandarm Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında dostluq və hərbi əməkdaşlıq münasibətlərinin daha da genişləndiyini qeyd edib, qonaqlara Qoşunların Vətən müharibəsindəki döyüş yolu və inkişafı barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində dost və qardaş ölkənin nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış şərait, o cümlədən Bakı şəhərində yerləşən “N” saylı hərbi hissələrlə tanış olublar.

# Baş nazir investisiya təşviqi sənədi alan sahibkarlarla bağlı qərar verib

***İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı təsdiq edilib.***

Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı aşağıdakı linkdədir:

https://nk.gov.az/uploads/doc/docs/64b7ccdb438c4.pdf

# Cahangir Əsgərovun bankından "böyük sıçrayış"

## Hər kəs bahalı uçuş biletlərindən narazıdır, AZAL "şef"inin ailə biznesi isə çiçəklənməyə davam edir

***“Azərbaycan Hava Yolları” (AZAL) Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərovun ailə biznesinə daxil olan ”Premium Bank”ın 2023-cü ilin birinci yarısına dair maliyyə göstəriciləri açıqlanıb. Həmin göstəriciləri isə ötən ilin müvafiq dövrü ilə müqayisədə kifayət qədər gözqamaşdırıcı saymaq olar. Belə ki, ”Premium Bank” ASC cari ilin ilk yarısını (yanvar-iyun) 5 milyon 112 min manat xalis mənfəət ilə başa vurub. Bank ötən ilin eyni dövrünü 78 min manat xalis mənfəət ilə bağlamışdı. Beləliklə, 2022-ci ilin birinci yarısı ilə müqayisədə 2023-cü il ”Premium Bank”ın xalis mənfəəti nə az, nə çox düz 65,5 dəfə artıb!***



Adıçəkilən bankın faiz gəlirləri 2023-cü ilin birinci yarısında 2022-ci ilin birinci yarısı ilə müqayisədə 4,8% artaraq 16 milyon 53 min manat, qeyri-faiz gəlirləri isə 15,4% artaraq 8 milyon 665 min manat təşkil edib.

2023-cü ilin birinci yarısında ”Premium Bank”ın cəmi əməliyyat gəlirləri 24 milyon 718 min manat, cəmi əməliyyat xərcləri 19 milyon 898 min manat, əməliyyat mənfəəti 4 milyon 820 min manat olub. Mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlardan azad olmuş 291 min manatın hesabına mənfəət 5 milyon 112 min manata yüksəlib. Müqayisə üçün qeyd edək ki, 2022-ci ilin birinci yarısında ”Premium Bank”ın cəmi əməliyyat gəlirləri 22 milyon 824 min manat, cəmi əməliyyat xərcləri 17 milyon 420 min manat, əməliyyat mənfəəti 5 milyon 404 min manat təşkil etmişdi. Bank əməliyyat mənfəətinin 5 milyon 325 min manatını mümkün zərərlər üçün yaradılan məqsədli ehtiyatlara ayırmışdı.

Cahangir Əsgərovun ailə bankının digər istiqamətlərdə də ilin ilk yarısı üçün göstəriciləri kifayət qədər parlaq saymaq olar. Məsələn, ”Premium Bank”ın cəmi aktivləri ötən ilin sonu ilə müqayisədə 6,4% artaraq 30 iyun 2023-cü il tarixində 736 milyon 786 min manat təşkil edib. Bankın kredit portfeli (müştərilərə verilmiş kreditlər) 7,7% artaraq 470 milyon 459 min manata yüksəlib.Yaxud, ”Premium Bank”da depozitlər 2023-cü ilin birinci yarısında 2022-ci ilin sonu ilə müqayisədə 9,8% artaraq 512 milyon 313 manata çatıb. O cümlədən, fiziki şəxslərin depozitləri 2,7% artaraq 349 milyon 781 min manata, hüquqi şəxslərin depozitləri isə 29,2% artaraq 162 milyon 532 min manata yüksəlib.

Onu da deyək ki, 30 iyun 2023-cü il tarixində ”Premium Bank” 172 milyon 485 min manat məcmu kapitala malik olub. Yəni bu baxımdan da Əsgərovun bankının mövqeləri kifayət qədər möhkəmdir.

Məlumat üçün bildirək ki, “Premium Bank”ın əsas səhmdarı olan Zərifə Həmzəyeva “Azərbaycan Hava Yolları” (AZAL) Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərovun həyat yoldaşıdır.

Hazırda bank səhmlərinin 84,5%-i Zərifə Həmzəyevaya məxsusdur. Bu isə o deməkdir ki, “Premium Bank” ASC-də Zərifə Həmzəyevaya məxsus 130,6 milyon manat var.

Onu da bildirək ki, “Premium Bank” 1993-cü ildə “AZAL Bank” adı ilə yaradılıb. 2008-ci ildə adı dəyişdirilərək “Silk Vey Bank” olub.

2018-ci ildə bankın adı yenidən dəyişdirilib və “Premium Bank” adlandırılıb.

Qeyd edək ki, Cahangir Əsgərov son illərdə xüsusilə bahalı uçuş biletlərinə görə medianın və vətəndaşların, eləcə də cəmiyyətin tanınmış nümayəndələrinin, millət vəkillərinin tənqid hədəfindədir. Bundan başqa, onun rəhbərlik etdiyi dövlət şirkətinin külli miqdarda borc bataqlığında olması da ictimai rəydə müzakirə mövzusudur. Son olaraq ötən il “Deliotte” audit şirkəti AZAL-ın 2021-ci ilin əvvəlinə olan borcunu açıqlamışdı. Bu barədə QSC-nin 2020-ci il üzrə maliyyə hesabatından məlum olurdu - bildirilirdi ki, borcun həcmi 2.18 milyard manatdan yuxarıdır!

Lakin maraqlıdır ki, bir yandan vətəndaşlar, az qala, dünyanın ən bahalı uçuş biletlərini almaq məcburiyyətində qaldığı, o biri yandan AZAL-ın borclarının ilbəil artdığı şəraitdə Cahangir müəllimin çoxşaxəli ailə biznesi daha da böyüyür, çiçəklənir. Kənardan absurd görünür, lakin nə etməli, bu da ölkəmizin özünəməxsus reallığıdır...

***Toğrul Əliyev***

# Ziya Məmmədov "hacı" ola bilmədi

## Sabiq nazirin Həccə getmək istəyi niyə baş tutmayıb?

***Azərbaycanın sabiq nəqliyyat naziri Ziya Məmmədov bu il Həcc ziyarətinə getmək istəsə də, onun bu niyyəti baş tutmayıb. Bu barədə redaksiyamıza daxil olan məlumatda deyilir.***

Qeyd edilir ki, sabiq nazir bir müddətdir hacı olmaq istəyindədir, lakin həmin istəyini heç cür gerçəkləşdirə bilmir. Bunun səbəbi məlum olmasa da, versiyalardan biri keçmiş "nəqliyyat şefi"nin ölkədən çıxışının qeyri-rəsmi şəkildə yasaqlandığı barədə bir müddət əvvəl yerli mediada yayılan xəbərlərdir. İddialara görə, Ziya müəllim ötən il müalicə məqsədilə də xaricə üz tutmaq fikrinə düşüb, lakin sonradan nəyə görəsə həmin fikrindən daşınıb.

Başqa bir versiyaya görə isə sabiq nazirin Həcc ziyarətini gerçəkləşdirə bilməməsi onun yaşı ilə bağlı ola bilər. Belə ki, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ötən il yaşı 65-dən yuxarı olanların Həcc ziyarətinə getməsinə məhdudiyyət qoymuşdu. Lakin həmin qadağa bu il aradan qaldırılıb.

Qeyd edək ki, Z.Məmmədovun hazırda 71 yaşı var.

Xatırladaq ki, eks-nazirin ibadətlə məşğul olduğuna dair ilk məlumat bir neçə il əvvəl yayılıb. Hətta onun ailə üzvlərinin də dini həyat tərzi keçirdiyi bildirilib. Lakin həmin məlumatlara sabiq nazir uzun illər münasibət bildirməyib. Yalnız qardaşı Elton Məmmədov mediaya onun nazir vəzifəsindən kənarlaşdırıldıqdan sonra boş vaxtını mütaliəyə ayırdığını deyib. Sitat: "Ziya müəllim müqəddəs Quranı-Kərimi kifayət qədər oxuya, təhlil edə bilir. Düşünürəm ki, bu da xoş olan bir işdir...".

Nəhayət, bu mövzuda uzun sürən səssizliyini pozan Ziya Məmmədov özü bir müddət öncə demişdi: "Mən yaranandan, ağlım kəsəndən Allahı tanıyıram, Allaha bəndəlik edirəm, onu sevirəm, əməli-saleh olmağa çalışıram. İbadət hər bir müsəlmanın Allah qarşısında borcudur. Mən bütün dövrlərdə ibadət eləmişəm. Hər bir müsəlmanın borcudur ki, ibadət etsin. İmanı olan insan namaz qılmalıdır... İslam dininin daşıyıcısı olmağımızla hər birimiz fəxr etməliyik. Mən də fəxr edirəm. Bu həyat müvəqqətidir. Ölüm mütləqdir. Allah da xəbərdarlıq edir ki, Qiyamət günü mütləq gələcək, insan əməlinə görə sorğu-sual olunacaq, cənnət-cəhənnəm müəyyənləşəcək. Bu həyatın özü enişliyoxuşlu yol olduğu üçün, əzablı, lənətlənmiş yol olduğu üçün çalışmaq lazımdır ki, o dünyada heç olmasa cənnəti qazanasan, günahlarını yuyasan. Bu dünyada hər birimiz günah işlədə bilirik. İstədik, istəmədik, günah edə bilirik. Çalışırıq ki, həmin o günahları tövbə edib Allah qarşısında təmizləyək".

"Cümə günləri məscidlərə gedirsinizmi" sualına "Xeyr, getmirəm. Özüm özlüyümdə məşğulam dinlə, ibadətlə..." deyə cavab verən Z.Məmmədov "Ailə üzvləriniz necə, məscidə gedirmi" sualını isə cavabsız buraxmışdı. Daha doğrusu, suala konkret cavab verməyərək öz xalqına, dövlətinə həmişə sədaqətli olmasından danışaraq demişdi: " Sədaqətimdən də geri dönən deyiləm. Azdan-çoxdan mənim insanlara münasibətim çoxlarına bəllidir. Gördüyüm işlər də çoxlarına bəllidir, görüblər, qiymətləndiriblər..."



Onu da deyək ki, vəzifədən çıxarıldıqdan sonra daha çox doğulduğu Ucar rayonunda, Qazıqumlaq kəndindəki villada yaşayan Ziya Məmmədovun ibadətlə yanaşı, ədəbiyyatla məşğul olduğu, şeirlər yazdığı barədə də məlumatlar yayılıb. Son olaraq isə eks-nazir özü doğma rayonunda kənd təsərrüfatı ilə məşğul olduğunu, fermer həyatı yaşadığını bildirmişdi: "Mən Ucardakı evimdəyəm, kənd təsərrüfatı ilə məşğulam, əkib-becərirəm. Artıq mənim başqa fəaliyyət növüm yoxdur. Rayonda arpa, buğda, yonca əkirəm. Mal-qaram var, dolanmaq lazımdır. İndiki dövrdə dolanmaq asan deyil. Təsərrüfatımda insanlar işləyir. Bu həmin ərazidə yaşayan insanların işlə təmin olunmasına dəstəkdir. Mən təbiətcə bekar qalmağı xoşlayan adam deyiləm. İşləmək istəyən insanlar üçün gözəl şərait qurulub. Cənab Prezidentə bu cür şərait qurduğuna görə təşəkkür edirəm".

Vəzifədə olduğu illər ərzində ölkənin ən varlı oliqarxlarından birinə çevrilən və adı daim çoxmilyonluq korrupsiya ittihamları ilə gündəmə gələn eks nazir 2017-ci ildə postunu itirib. Bundan sonra onun uzun müddət rəhbərlik etdiyi sahədə yol verilmiş korrupsiya əməlləri ilə bağlı araşdırmalar aparılacağına dair xəbərlər yayılsa da, belə məlumatlar öz təsdiqini hələlik tapmayıb.

***Sənan Mirzə***

# Baş prokuror: "Vətən müharibəsində mətbuatın böyük rolu olub"

***Vətən müharibəsində mətbuat nümayəndələrinin böyük rolu olub.***

Bunu Baş prokuror Kamran Əliyev Milli Mətbuat Günü münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təşkil edilən tədbirdə çıxışında deyib.

O bildirib ki, mətbuat nümayəndələri Azərbaycan və Qarabağ həqiqətlərini bütün dünyaya çatdırıblar: "Azərbaycan mətbuatının müharibə zamanı yaydığı informasiyaları dünya mətbuatı istinadla işıqlandırdı. O zaman informasiya müharibəsi gedirdi. Sizlərin də gərgin əməyi nəticəsində biz qalib gəldik".

# Seyid Camal Əzimbəyli inanclı insanlara çağırış edib



***"Azərbaycan xalqı əsrlərdir ki, İslam peyğəmbəri Məhəmməd Mustafanın və onun mübarək ev xalqına, Əhli-beytinə sevgi, sayğı və ehtiramda israrlıdır".***

Bu fikirləri Qarabağ Seyid Ocaqlarının rəhbəri, şərqşünas Seyid Camal Əzimbəyli deyib.

Onun sözlərinə görə, məhz Əhli-beyt sevgisi Azərbaycanda məzhəblərarası, dinlərarası münasibətlərin qorunub saxlanmasında, birlik və bərabərliyin, qardaşlığın mühafizə olunmasında, eləcə də Azərbaycan dövlətçiliyinin bütövlüyü yolunda bir ortaq dəyərə çevrilib: "Azərbaycan dünyəvi ölkə olsa da, peyğəmbər və onun Əhli-beyt irsinin yaşadılmasının, mühafizə olunmasının ən böyük təminatçısı Azərbaycan dövlətinin başçısı, Qarabağın fatehi cənab İlham Əliyev özüdür".

Camal Əzimbəyli İmam Hüseynin şəhadətə qovuşduğu Məhərrəm ayından danışarkən inanclı insanlara çağırış edib: "Məhərrəm ayında İmam Hüseyn məktəbindən dərs alaraq yad ölkələrin deyil, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin əmri və iradəsi ilə döyüşə atılaraq şəhadət zirvəsinə çatan igidlərimiz var. Ən yaxın tariximizdə Azərbaycan şəhidlərinin sərvəri Seyid Mübariz İbrahimovun qəhrəmanlığını nümunə gətirə bilərik. Vəfa borcumuzdur ki, şəhidlərimizin məzarlarını ziyarət edək. Bununla yanaşı, şəhid doğmalarının qapısını açmaq elə İmam Hüseyn başda olmaqla bütün şəhidlərə ən böyük sayğı, ehtiram və ehsandır. Çünki onlar vətən, dövlət uğrunda canlarını fəda ediblər. Bu, İslamın da hökmlərinə, dinimizin də gətirdiyi təməl prinsiplərinə uyğundur. Bununla bərabər, qəhrəman qazilərimizi yad etmək, problemlərinin həllinə yardımçı olmaq da elə imana bağlıdır. Əhli-beyt sevgisi imandandır. Əsl Əhli-beyt aşiqləri vətəninə, dövlətinə, bayrağına bağlı olanlardır".

# "Sərhəd məsələlərində heç bir problemimiz yoxdur" - Baqeri

***"Azərbaycanla əlaqələrimiz inkişaf edir, sərhəd və təhlükəsizlik məsələlərində heç bir problemimiz yoxdur".***

"Unikal" "Mehr" agentliyinə istinadən xəbər verir ki, bunu İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Məhəmməd Baqeri dünən Azərbaycanla sərhəd məntəqəsini ziyarət edərkən deyib.

"İki ölkə arasında iqtisadi əlaqələr hər gün inkişaf edir və dərinləşir. Bu səfər yalnız dövri səfərdir və hər il ölkə sərhədlərində həyata keçirilir", - deyə Baqeri bildirib.

***Nuranə Abbasova***

# Gürcüstan 19 Azərbaycan vətəndaşını deportasiya edib

***Gürcüstan bu ilin ikinci rübündə 19 Azərbaycan vətəndaşını deportasiya edib.***

APA-nın Tbilisi müxbiri xəbər verir ki, bu barədə Gürcüstan Daxili İşlər Nazirliyinin (DİN) rüblük hesabatında bildirilib.

Qeyd olunub ki, ölkədən çıxarılan Azərbaycan vətəndaşlarından 10-u yetkinlik yaşına çatmayan, 2-si 18-25 yaş aralığından, 3-ü 26-40 yaş aralığından, 4-ü isə 41-65 yaş aralığındandır.

Ümumilikdə, aprel-iyun ayları ərzində Gürcüstandan deportasiya edilən Azərbaycan vətəndaşlarından 12-si qadın, 7-si isə kişi olub. Statistikaya əsasən, bu il Gürcüstandan ümumilikdə 32 Azərbaycan vətəndaşı deportasiya edilib.

Cari ilin birinci yarısında Gürcüstandan ən çox deportasiya edilənlər Azərbaycan vətəndaşları olublar.

# Qarabağda 8 peşə təhsil müəssisəsi tikiləcək



***Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək.***

"Unikal" xəbər verir ki, hazırda Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir.

Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır.

Qeyd edək ki, Prezident İlham Əliyev iyulun 20-də Cəlilabad rayonunda olub. Dövlət başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib.

# Körpəsini zibil qutusuna tullayan anaya cinayət işi açıldı



***İyul ayının 17-də Sabunçu rayonunda yeni doğulmuş körpənin məişət tullantıları qutusunda tapılması və polis əməkdaşları tərəfindən tibb müəssisəsinə yerləşdirilməsi ilə bağlı Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsində araşdırmalar aparılıb.***

"Unikal" xəbər verir ki, körpəni məişət tullantıları qutusuna atan ana S.Qasımova saxlanılıb, onun izahatı alınıb və zəruri istintaq hərəkətləri icra edilib. Toplanmış materialda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 143-cü (Təhlükədə qoyma) maddəsinin əlamətləri olduğundan həmin madde ilə Sabunçu Rayon Polis İdarəsinin İstintaq Şöbəsində cinayət işi başlanılıb, S.Qasımova təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilib.

İş üzrə müvafiq istintaq hərəkətləri və araşdırmalar davam etdirilir.

# Qazinin çənəsini sındıran idmançı hakim qarşısında



***Binəqədi Rayon Məhkəməsində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əməkdaşı, qazi Namiq Babayevə xəsarət yetirməkdə təqsirləndirilən idmançı Rəvan Nəbizadənin cinayət işi üzrə məhkəmə iclası başlayıb.***

Hakim Vüsal Əlizadənin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin növbəti iclası avqustun 3-nə təyin edilib.

Qeyd edək ki, rəsmi məlumata görə, sağlamlığı qaydasında olmasına baxmayaraq, əlillik dərəcəsi almaq üçün komissiyaya gələn R.Nəbizadə növbədənkənar müayinəyə daxil olmağa cəhd edib. N.Babayev onu sakitləşdirmək niyyəti ilə yaxınlaşaraq izahat verən zaman R.Nəbizadə ona yumruq zərbələri ilə ağır bədən xəsarəti yetirib. N.Babayevin çənə sümüyü sınıb, dişləri qırılıb.

R.Nəbizadəyə qarşı Cinayət Məcəlləsinin 127.2.3 (Qəsdən sağlamlığa az zərər vurma) və 221-ci (Xuliqanlıq) maddələri ilə ittiham irəli sürülüb, barəsində həbs qətimkan tədbiri seçilib.

İdmançı bir müddət əvvəl ev dustaqlığına buraxılıb.

N.Babayev və R.Nəbizadə hər ikisi Vətən müharibəsi iştirakçısı olub. N.Babayev Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib, 5 medalla təltif olunub. R.Nəbizadə isə döyüş növləri üzrə peşəkar idmançıdır.

# Bakıda özəl çimərliklərin qiymət soyğunçuluğu

## 4 nəfərlik bir ailə özəl çimərliklərə təkcə giriş haqqı olaraq 1 ayda minimum əmək haqqından daha çox pul xərcləməli imiş...

***İsti yay günlərində əhalinin istirahət üçün üz tutduğu məkanlardan biri də çimərliklərdir. Ödənişli və yaxud ödənişsiz, hər kəs istirahətini cibinə görə müəyyənləşdirir.***

Son vaxtlar sosial şəbəkələrdə ən çox müzakirə olunan mövzulardan biri isə özəl çimərliklərin müəyyənləşdirdiyi fantastik qiymətlərdir. Bu çimərliklərə hətta giriş haqqının belə hədsiz baha olması, üstəlik, istirahətə gələnlər üçün məhdudiyyətlərin sərt olması paytaxt sakinlərinin daha çox pulsuz çimərliklərə üz tutmasına gətirib çıxarır.

Elə vətəndaşlarla aparılan sorğularda da bunu görmək olar. Onlar daha çox ictimai çimərliklərə üstünlük verdiklərini müxtəlif cür izah edirlər. Özəl çimərliklərdən fərqli olaraq burada sərt qaydalar tətbiq edilmir. Kimi özü ilə samovar gətirir, kimi də yemək-içmək...

Özəl çimərliklərdə isə vəziyyət xeyli fərqlidir. Burada 4 nəfərlik bir ailənin giriş haqqı həmin ailənin büdcəsinə əməlli-başlı "yük" təşkil edir.

Belə ki, aparılan araşdırmalar nəticəsində aydınlaşıb ki, sözügedən çimərliklərdə bir nəfər üçün giriş haqqı ən azı 20-30 manatdan başlayır, bəzilərində hətta 40 manatadək yüksəlir.

Araşdırmalar onu da göstərib ki, Abşeron yarmadasının ən bahalı çimərlikləri Novxanı, Bilgəh və Buzovna ərazisində olan özəl çimərliklərdir.

Lakin məsələ ondadır ki, həmin çimərliklərdə kənardan nəinki yemək, meyvə, hətta adi su gətirməyə belə icazə verilmir. Səbəb? Səbəb sadədir: marketlərdə 40-50 qəpiyə satılan adi su burada minimum 2-3 manata təklif edilir. Energetik və şirəli içkilərin qiymətləri isə bundan azı 2 qat yüksəkdir.

Yeməklərin qiymətinə gəlincə, bu barədə ümumiyyətlə danışmağa dəyməz. Həmin qiymətlərlə kafe və restoranların qiymətləri arasında ən az 2-3 dəfə fərqin olduğu deyilir.

Belə çıxır ki, 4 nəfərlik bir ailə hər həftəsonu bircə yol özəl çimərliyə üz tutsa onda ayın axırında təkcə giriş haqqı olaraq ümumilikdə ən azı 350 manat ödəməlidir! Absurd deyilmi? Ən azı ona görə ki, Azərbaycanda minimum əmək haqqı 345 manatdır... Orta aylıq əmək haqqının isə 850 manat olduğunu nəzərə alsaq belə çıxır ki, yay aylarında bunun yarısını özəl çimərliklərə xərcləmək lazım gəlir, özü də həftədə 1 dəfə olmaqla və yalnız giriş haqqı üçün!

Özəl çimərliklərin əməkdaşları qiymətlərin soyğunçuluq həddində yüksək olmasını xidmət səviyyəsinin də yüksək olması ilə izah edirlər.

Lakin aydın deyil ki, söhbət hansı xidmətin yüksək səviyyədə olmasından gedir. Əgər özəl çimərliklərdə təmizliyin daha yaxşı təşkil olunması nəzərdə tutulursa, bu absurddur. Çünki həmin çimərliklərdə nəzarət güclüdür və müşahidələr göstərir ki, özəl çimərliklərə üz tutanlar bununla bağlı qaydalara ciddi əməl edirlər.

Bəlkə, özəl çimərliklərdə su ictimai çimərliklərdən daha təmizdir?!

Yeri gəlmişkən, daha bir maraqlı məqam: əldə etdiyimiz məlumatlara görə, bir çox özəl çimərliklərdə xarici turistlərdən daha çox giriş haqqı tələb olunur. Eyni zamanda onlara təklif edilən yemək-içməklərin qiyməti də yerli vətəndaşlarla müqayisədə xeyli bahadır. Sonra da oturub düşünürük ki, təbiətin hər cür gözəllik bəxş etdiyi ölkəmizə xaricdən turist axını niyə ürəkaçan səviyyədə deyil?...

Qeyd edək ki, ötən illərdə də özəl çimərliklərdə qiymətlərin fantastik həddə yüksək olması narazılıqlara gətirib çıxarmışdı. Həmin vaxt ictimai müzakirələr zamanı ekspertlər bildirirdilər ki, əsl özəl çimərliklər, yəqin qanuna uyğun şəkildə bağlanmış müqavilələr əsasında fəaliyyət göstərən çimərliklər varsa, orada qiymətə dövlətin hansısa müdaxiləsi mümkün deyil. Orada göstərilən xidmətlərə və satılan məhsullara görə dövlətin nəzarət edə biləcəyi yeganə amil vergi daxilolmalarıdır. "Əgər hansısa sahibkar dükanda 50 qəpiyə olan suyu 5 manata sata bilirsə, bunu qanun qadağan eləmir. Sadəcə olaraq, əldə etdiyi 4.50 qəpik gəlirin mənfəət vergisini verməlidir, verginin digər növünü verməlidir. Sahibkarlar görsələr ki, vergi nəzarəti güclüdür, qiymətlərin kəskin artımında özləri də maraqlı olmazlar. Çünki qiyməti nə qədər çox artırsalar, vergi yükü də bir o qədər çox artacaq. Ona görə də dünyada vergi siyasəti qiymətlərin tənzimlənməsində rol oynayan amilə çevrilir. Lakin dövlət sahibkara "niyə bu qiymətə satırsan" deyə müdaxilə edə bilməz. Vətəndaşlar öz təşəbbüsü ilə bunu tənzimləyə, ictimai qınaq yarada bilərlər, insanlar həmin obyektləri boykot edə bilərlər. Bu zaman da həmin obyekt sahibləri normal qaydada fəaliyyət göstərərlər" - deyə iqtisadçı ekspert Natiq Cəfərli bildirmişdi.



Lakin aidiyyatı qurumlar bir çox sahələrdə olduğu kimi, xidmət sektorunda da anormal qiymətlərin qarşısını almaqda hələ ki, aciz görünürlər. Bu nə vaxtadək davam edəcək? Bilmirik.

Bilən varmı, onu da bilmirik...

***Toğrul Əliyev***

## 5.3.11. regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad edilmiş rayonlar üzrə prioritet istiqamətlər müəyyənləşib



***2023-cü il üçün işğaldan azad edilmiş rayonlarda aqropark və fermer təsərrüfatlarının yaradılması, ətlik və südlük istiqamətli cins iribuynuzlu və digər heyvandarlıq komplekslərinin yaradılması və genişləndirilməsi nəzərdə tutulub.***

Regionların sosial-iqtisadi inkişafı daim dövlətin priotet istiqamətlərindəndir. Bunu bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın qəbul edilməsi də təsdiqləyir. Qeyd edək ki, artıq dövlət proqramının icrası üçün iqtisadi rayonlar üzrə prioteləri də müəyyənləşib. Bu siyahıya işğaldan azad olunmuş rayonlarımız da daxildir. Bəs görəsən, işğaldan azad edilmiş rayonlarımız üzrə prioritet istiqamətlər hansılardır?

Sahibkarlığın İnkişafı Fondundan sorğumuza cavab olaraq bildirildi ki, 2023-cü il üçün iqtisadi rayonlar üzrə priotet istiqamətlər hər iqtisadi rayon üzrə fərqlidir.

Qarabağ iqtisadi rayonu üzrə Xocalı, Xocavənd, Şuşa, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzulidə dövlət başçısının fərman və sərəncamlarında, dövlət proqramlarında, Nazirlər Kabinetinin qərar və sərəncamlarındakı istehsal, emal və xidmət sahələrinin yaradılması və ya genişləndirilməsi nəzərdə tutulub. Aqrar sektorda emal müəssisələrinin yaradılması və mövcud emal müəssisələrinin modernləşdirilməsi və ya genişləndirilməsi də prioritetdir. Aqropark və fermer təsərrüfatlarının yaradılması, ətlik və südlük istiqamətli cins iribuynuzlu və digər heyvandarlıq komplekslərinin yaradılması və ya genişləndirilməsi nəzərdə tutulub. Xocalı, Xocavənd, Şuşa, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Füzulidə müasir suvarma sistemləri və digər müasir texnologiyaların tətbiqi ilə əkinçilik, intensiv bağçılıq və toxumçuluq-tingçilik təsərrüfatlarının yaradılması və ya genişləndirilməsi də prioritetdir. Bu rayonlarda qurudulmuş və dondurulmuş meyvətərəvəz istehsalı, qüvvəli yem və ət kəsimi müəssisələrinin yaradılması və ya genişləndirilməsi hədəfdədir. Eyni zamanda Qarabağ iqtisadi rayonu üzrə baramaçılıq və üzümçülük təsərrüfatlarının yaradılması, baramaqurutma, yun və dəri qəbulu məntəqələrinin yaradılması və ya genişləndirilməsi, şərabçılıq və mineral sular müəssisələrinin yaradılması da nəzərdə tutulub. Bu rayonların turizm potensialı olduğundan turizmin inkişafı üzrə layihələrdə diqqətdə saxlanılacaq. Logistik xidmətlər üçün qida və qeyri-qida məhsullarının daşınması, habelə daşımalarla əlaqədar parkların yaradılması, yenilənməsi və genişləndirilməsinə dair layihələrin qəbulu və maliyyələşdirilməsi də prioritetdir. Adı çəkilən rayonlarda anbar komplekslərinin yaradılması yönümlü layihələrin dəstəklənməsi, müasir texnologiyalar əsasında istehsal və emal sahələrində yüngül, yeyinti, kimya, maşınqayırma sənayesi və s müəssisələrin yaradılması və ya genişləndirilməsi nəzərdə tutulub. Eləcə də dağ-mədən sənayesinin inkişafı yönümlü layihələrin, rəqəmsal inkişaf və innovasiya yönümlü layihələrin dəstəklənməsi, yaşıl layihələrin maliyyələşməsi də prioritetdir.

Sahibkarlığın İnkişafı Fondundan bildirdilər ki, işğaldan azad edilmiş Şərqi Zəngəzur iqtisadi rayonu üzrə Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilanda da Prezidentin fərman və sərəncamlarında, dövlət proqramlarında, Nazirlər Kabinetinin qərar və sərəncamlarında nəzərdə tutulan istehsal, emal və xidmət sahələrinin yaradılması və ya genişləndirilməsi nəzərdə tutulub. Bu rayonlar üzrə aqrar sektorda emal müəssisələrinin yaradılması və mövcud emal müəssisələrinin modernləşdirilməsi və ya genişləndirilməsi planı var. Aqropark və fermer təsərrüfatlarının, ətlik və südlük istiqamətli cins iribuynuzlu və digər heyvandarlıq komplekslərinin, müasir suvarma sistemləri və digər müasir texnologiyaların tətbiqi ilə əkinçilik, intensiv bağçılıq və toxumçuluq-tingçilik təsərrüfatlarının yaradılması və ya genişləndirilməsi də nəzərdə tutulub. Sözügedən rayonlarda qurudulmuş və dondurulmuş meyvə-tərəvəz istehsalı, qüvvəli yem və ət kəsimi müəssisələrinin yaradılması və ya genişləndirilməsi, baramaçılıq və üzümçülük təsərrüfatlarının yaradılması da prioritetdir. Şərqi Zəngəzur iqtisadi rayonu üzrə baramaqurutma, yun və dəri qəbulu məntəqələrinin, şərabçılıq və mineral sular müəssisələrinin yaradılması dəstəklənməsi həyata keçiriləcək. Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilanda da turizmin inkişafı üzrə layihələrin dəstəklənməsi, logistik xidmətlərin, qida və qeyri-qida məhsullarının daşınması, habelə daşımalarla əlaqədar parkların yaradılması, yenilənməsi və genişləndirilməsinə dair layihələrin, anbar komplekslərinin yaradılması yönümlü layihələrin dəstəklənməsi priotetdir. Bu rayonlarda müasir texnologiyalar əsasında istehsal və emal sahələrində yüngül, yeyinti, kimya, maşınqayırma sənayesi və s.) müəssisələrin yaradılması plana daxildir. Bu bölgədə dağ-mədən sənayesinin inkişafı yönümlü layihələrin, rəqəmsal inkişaf və innovasiya yönümlü layihələrin, yaşıl layihələrin maliyyələşməsi də həyata keçiriləcək.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Bütün ciddi media subyektləri məlumatlarını Reyestrə daxil edib



***"Azərbaycanın bütün ciddi media subyektləri məlumatlarını Media Reyestrinə daxil ediblər".***

"Unikal" xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) şöbə müdiri Natiq Məmmədli MEDİA, Audiovizual Şura və Mətbuat Şurasının təşkilatçılığı ilə Milli Mətbuatın 148 illiyi münasibətilə "Media qlobal transformasiyalar dövründə: ənənələrdə varislik, jurnalistika prinsipləri və ictimai maraqlar" mövzusunda keçirilən konfransda deyib.

O bildirib ki, keçən ilin oktyabrında Media Reyestri fəaliyyətə başlayıb: "Azərbaycanın bütün ciddi media subyektləri məlumatlarını Media Reyestrinə bəyan ediblər. Bu proses artıq yekunlaşıb. Media sahəsində islahatların əsas məqsədi bu sahənin inkişafına nail olmaqdır. Bu proses davamlı xarakter daşıyacaq. Media sahəsində islahatlar yeni imkanlar və yeni fürsətlər deməkdir".

# Jurnalistlər Heydər Əliyevin və Zərdabinin məzarını ziyarət edib



***Milli mətbuatımızın 148 illiyi və 22 İyul - Milli Mətbuat Günü münasibətilə Azərbaycan Respublikası Audiovizual Şurası, Medianın İnkişafı Agentliyi (MEDİA), Azərbaycan Mətbuat Şurası, çap və onlayn media orqanlarının nümayəndələri iyulun 20-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Azərbaycan milli mətbuatının banisi, "Əkinçi" qəzetinin naşiri və redaktoru, Azərbaycan milli məfkurəsinin əsaslarını yaradanlardan biri olan Həsən bəy Zərdabinin məzarı önünə əklil və tər güllər qoyulub, böyük mütəfəkkirin xatirəsi ehtiramla yad edilib.

# Direktorların işə qəbulu üzrə nəticələr açıqlandı



***Direktorların işə qəbulu üzrə müsabiqənin iyulun 6-da keçirilən test imtahanı mərhələsinin nəticələri açıqlanıb.***

Elm və Təhsil Nazirliyindən bildirilib ki, imtahanların nəticələri namizədlərin şəxsi səhifələrinə göndərilib.

Qeyd edək ki, imtahanda 1 524 nəfər iştirak edib. Test imtahanında sualların 50 faizini düzgün cavablandıran 716 namizəd esse mərhələsində iştirak hüququ qazanıb.

# 35 mindən çox abituriyent imtahan verəcək

***Dövlət İmtahan Mərkəzi tərəfindən iyulun 22-də I ixtisas qrupu, iyulun 23-də isə IV ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək. İyulun 23-də I qrup üzrə RK və Rİ altqruplarının hər ikisini seçən abituriyentlər üçün informatika fənni üzrə də imtahan keçiriləcək.***

Bu barədə DİM-dən məlumat verilib. Bildirilib ki, imtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Qazax, Ağstafa, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Cəlilabad, Lənkəran və Xaçmazda təşkil olunacaq.

İştirakçılar iyulun 17-dən etibarən Dövlət İmtahan Mərkəzinin saytında "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilirlər.

"İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 10:00?da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

# Abituriyentlər Dini Psixoloji Komissiyada qeydiyyatdan keçməlidir



***İslamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlər müsahibədə iştirak etmək üçün 20 iyul - 24 iyul tarixlərində verilən link (//eservices.dim.gov.az/qabiliyyet/?frm=egov) vasitəsilə Dini Psixoloji Komissiya (DPK) üzrə qeydiyyatdan keçməlidirlər.***

İslamşünaslıq ixtisası üzrə DPK Bakıda fəaliyyət göstərəcək.

Müsahibədə abituriyentin dünyagörüşü və dini bilikləri, dini baxışlar və dünyəvilik anlayışı, psixoloji parametrlərinin islamşünaslıq ixtisasına uyğunluğu, tolerantlıq və multikulturalizm təsəvvürləri yoxlanılır.

Müsahibədən uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı III ixtisas qrupuna aid digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun islamşünaslıq ixtisasını da seçə bilərlər.

DPK-nın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər və DİM-in əməkdaşları daxil edilirlər.

Qeyd edək ki, müsahibədə III ixtisas qrupunu seçmiş və müsabiqə şərtlərinə əsasən ümumi balı 150, o cümlədən qəbul imtahanının II mərhələsi üzrə minimum 50 bal toplamış abituriyentlər iştirak edə bilərlər (II cəhd qəbul imtahanının nəticələrinə görə müsabiqə şərtini ödəyən abituriyentlər nəticələr məlum olduqdan sonra qeydiyyatdan keçə bilərlər).

# Azərbaycan beynəlxalq pasport reytinqində irəliləyib

***Azərbaycan beynəlxalq pasport reytinqində 6 pillə yüksəlib.***

"Unikal" xəbər verir ki, Azərbaycan "The Henley Passport Index 2023"də 72-ci yerdə qərarlaşıb. Ötən il bu pillə 78-ci idi. Reytinq cədvəlində Gürcüstan 48-ci, Rusiya 49-cu, Ermənistan 74-cü pillədədir. Azərbaycan vətəndaşları 69 ölkəyə vizasız gedə bilərlər.

***Nuranə Abbasova***

# Şəhidin xatirə muzeyi açılıb

***Lənkəranda şəhid kapitan Vüsal Quliyevin xatirə muzeyinin açılışı olub. Boya-başa çatdığı evində yaradılan muzeyə şəhidə aid fotoşəkillər, xatirə dəftəri, təltifləri, medalları və şəhidin hərbi forması qoyulub.***

Qeyd edək ki, Vüsal Quliyev 5 iyun 1985-ci ildə Lənkəran şəhərində anadan olub. Orduda kapitan rütbəsində xidmət edən Vüsal 2020-ci il sentyabrın 27-də Ermənistanın işğal altında olan əzəli, əbədi yurd yerimiz Qarabağın azad edilməsi üçün başladılan əks-hücum əməliyyatlarında iştirak edib. Qəhrəman zabit haqq savaşımızın ilk günündən Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərib. 28 sentyabr 2020-ci ildə elə Suqovuşanda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olaraq əbədiyyət adlı dünyasına qovuşub.

Vüsal Quliyev ölümündən sonra "Vətən uğrunda", Füzulinin, Qubadlının azad olunmasına görə medalları və "Şəhadət" ordeni ilə təltif edilib.

Bəli, Vətən sevdalıların ömrü elə Vətən qədər əbədi olur. Onlar cismən aramızdan getsələr də, mənən qəlblərdə yaşamaqla hər an ehtiramla xatırlanır. Şəhid kapitan Vüsal da belə...

***Zəfər Orucoğlu, AJB üzvü***

# Binəqədidə insan sümükləri aşkarlandı

***İyulun 19-da Binqədi rayonunun Baksol qəsəbəsi ərazisində insan skletinin kəllə və 2 ədəd bazu sümüyünə bənzər sümük aşkar edilib.***

Bu barədə "Unikal"a Baş prokurorluğun Mətbuat xidmətindən daxil olan məlumatda bildirilib. Faktla bağlı rayon prokurorluğunda araşdırma başlanlıb, müvafiq ekspertizalar təyin edilib.


**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Ələkbərov Elşən Mehman oğluna verilmiş AA 03269 nömrəli, Qasımov Eldar Valeh oğluna verilmiş AA 03332 gəmi biletləri itdiyi üçün etibarsız sayılır.**

**ELAN**

**Zamanov İbrahim Zahid oğluna məxsus MİKFA İNŞAAT MMC - nin (VÖEN: 1304376211) tikintisinin icazəsinə tələb olunan lisenziyası itirilmişdir.**


# Magistraturaya ayrılmış yerlərin 95%-i dolub

***Dövlət İmtahan Mərkəzi Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri ilə bağlı bəzi statistik göstəriciləri (əsas yerləşdirmədən sonra) təqdim edib.***



DİM-dən "Unikal"a verilən məlumata görə, müsabiqənin nəticələrinə əsasən, ixtisaslaşma seçimində iştirak edən 17359 bakalavrdan 13286 nəfəri ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunub.

Qəbul olunanlardan 5981 nəfər dövlət sifarişi, 7305 nəfər isə ödənişli əsaslarla təhsil alacaq. Onlardan 9745 nəfər ali təhsil müəssisələrinin cari, 3541 nəfər isə əvvəlki illərin məzunudur.

Müsabiqənin nəticələrinə əsasən, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ayrılmış 14038 yerin 94.64 %-i dolub. Bu son illər qeydə alınmış ən yüksək göstəricidir. Ötən il müvafiq göstərici 88.63%, 2021-ci ildə isə 92.95% olub.

Magistraturaya qəbul 71 proqram üzrə aparılıb və proqramlar üzrə müsabiqə vəziyyəti müxtəlif olub. Proqramlar üzrə ayrılmış plan yerlərinin dolma göstəriciləri fərqlidir. Misal üçün, neft-qaz mühəndisliyi, gəmiqayırma, istehlak mallarının ekspertizası, fövqəladə hallar, hava nəqliyyatı, pedaqogika, mexanika, biologiya, torpaqşünaslıq və aqrokimya, filologiya, sosiologiya, psixologiya, balıqçılıq, bədən tərbiyəsi, MBA, nəqliyyat servisi, kosmik texnika və texnologiyalar mühəndisliyi, yanğın təhlükəsizliyi, çox işlənən malların texnologiyası və aktyor sənətinə uyğun olan 2, 7, 21, 24, 25, 27, 30, 34, 35, 38, 42, 48, 52, 54, 57, 60, 71, 72, 74 saylı proqramlara ayrılmış plan yerləri tam (100%) dolub. Ancaq nəzərə almaq lazımdır ki, bu proqramların bəziləri üzrə plan yerlərinin sayı az idi və onların tam dolacağı əvvəlcədən gözlənilirdi.

Ən aşağı müsabiqə vəziyyətinin formalaşdığı istilik energetikası, dəmiryol nəqliyyatı, dağ-mədən mühəndisliyi, çoxkanallı radiorele və troposfer rabitəsinin yerüstü aparatlarının hazırlanması və kompozisiya materiallarından müdafiə təyinatlı məmulatların layihələndirilməsi sahələrinə aid 4, 8, 29, 64, 65 saylı proqramlara ayrılmış plan yerlərinin 50%-dən çoxu boş qalmışdır. Bu proqamlar üzrə də plan yerlərinin dolmayacağı məlum idi.

Ümumiyyətlə qəbul proqramlarının bəziləri üzrə qəbul planının bu və ya digər səviyyədə kəsirdə qalacağı əvvəlcədən bəlli idi. Belə ki, imtahan nəticələrinə uyğun olaraq həmin proqramlar üzrə ixtisaslaşma seçiminə buraxılan bakalavrların sayı plan yerlərindən az idi.

Müsabiqənin nəticələrinə əsasən, Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Dəniz Akademiyası, Bakı Ali Neft Məktəbi, Dövlət Gömrük Komitəsinin Akademiyası, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Bakı Qızlar Universiteti, Odlar Yurdu Universiteti, Bakı Biznes Universiteti, Naxçıvan Universiteti, Əmək və Sosial Münasibətlər Akademiyasında plan yerləri tam (100%), Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Mühəndislik Universiteti, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Qərbi Kaspi Universitetlərində plan yerləri 95% və daha çox dolub. Plan yerlərinin dolma göstəricisi üzrə ən zəif nəticə Azərbaycan İlahiyyat İnstituna (66.67%) aiddir.

# Lənkəranda əməliyyat keçirildi - 13 nəfər saxlanıldı

***Lənkəran sakininin həyətindən narkotik vasitə və çətənə kolları aşkarlanıb.***



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Lənkəran regional qrupundan "Unikal"a bildirilib ki, Lənkəran Şəhər Rayon Polis Şöbəsinin Liman polis bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik xassəli çətənə bitkiləri yetişdirməkdə şübhəli bilinən rayonun Balıqçılar qəsəbəsinin sakini, əvvəllər məhkum olunmuş Müqəddəs Qəmbərov saxlanılıb. Onun yaşadığı evin həyətindən kultivasiya yolu ilə yetişdirdiyi 41 ədəd çətənə bitkisi aşkarlanaraq götürülüb.

Əməliyyat tədbirlərinin davamı olaraq keçirilən baxış zamanı M.Qəmbərovun yaşadığı evin həyətindəki yarımçıq tikilidən kultivasiya yolu ilə yetişdirdiyi çətənə bitkilərindən əldə etdiyi 3 kiloqramdan artıq marixuana aşkarlanaraq götürülüb.

Qeyd edək ki, Lənkəran ŞRPŞ-nin əməkdaşlarının son bir həftə ərzində keçirdikləri əməliyyatlar zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən ümumilikdə 13 nəfər saxlanılıb.

Faktlarla bağlı araşdırma aparılır.

# Çaylarda aparılan monitorinqlərin nəticələri barədə görüş keçirilib

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətində "Transsərhəd çaylarının sahilinin mühafizəsi üzrə sahilbərkitmə və məcratəmizləmə işləri" ilə əlaqədar yaradılmış işçi qrupu tərəfindən Araz, Samurçay, Qanıx, Mazımçay, Astaraçay və Bolqarçay çaylarında aparılmış monitorinqlərin nəticələri barədə görüş keçirilib.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini və işçi qrupun sədri Zakir Quliyev tərəfindən keçirilmiş monitorinqlər barədə geniş məlumat verilib.



Görüşdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər, Xarici İşlər və İqtisadiyyat Nazirliklərinin, həmçinin Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Qarabağ Regional Memarlıq və Şəhərsalma Baş İdarəsinin, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Avtomobil Yollarının İstismarı və Təmiri Baş İdarəsinin və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri iştirak edib.

Aparılmış monitorinqlərin nəticəsi əsasında hazırlanmış 5 illik tədbirlər planının Nazirlər Kabinetinə təqdim edilməsi məqsədə uyğun hesab edilib.

# Suvarma sistemlərindəki problemlər aradan qaldırılır

***Goranboyda kanallar lildən təmizlənir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Goranboy Suvarma Sistemləri İdarəsi Goranboy rayonunun 61740 ha əkin sahələrinin suvarılmasına xidmət edir.***

Bundan əlavə olaraq əkin üçün istifadə olunan 4000 ha örüş sahəsi, 10500 ha Dövlət fond torpaqları, 7000 ha bələdiyyə torpaqları olmaqla daha 21500 ha əkin sahələrinin suvarılması da idarənin üzərinə düşür ki, faktiki olaraq idarə tərəfindən rayonun 83240 ha əkin sahələrinin suvarılması təmin olunur. Əkin sahələrinin su təminatının yaxşılaşdırılması, sahələrə suvarma suyunu daha asan və itkisiz çatdırılması üçün torpaq məcralı kanallar daim lildən təmizlənir. Bunun üçün idarənin texnikaları bir-neçə istiqamətdə bu işləri icra edir. Hazırda yağan leysan yağışları nəticəsində təkrar lillənməyə məruz qalan kanallar da lildən təmizlənərək suyun axını təmin olunur.

İdarənin balansında olan əkin sahələrinin suvarılmasına 968 ədəd subartezian quyusu, 16 ədəd nasos stansiyaları, Sol Sahil Tərtər kanalı, Şəmkir Maşın kanalı, Kürəkçay çayı, Qaragoran və İnçə çayları xidmət edir. Bu il subartezian quyularının 15 ədədinin bərpasına başlanılıb. Yaxın günlərdə isə 10 ədəd yeni subartezan quyularının qazılmasına başlanacaqdır. 2023-cü ilin 6 ayı ərzində 480 ədəd subartezan quyusunun nasosları təmir olunaraq quyunun iş rejimi yenidən bərpa olunub, 35 subartezan quyusuna yeni nasoslar salınıb. Bu iln 6 ayı ərzində daxili Səfikürd nasos stansiyasının boru xəttində 55 metr, 1 nömrəli Borsunlu nasos stansiyasının boru xəttində 70 metr, Boluslu nasos stansiyasının boru xəttində 40 metr, Qızılhacılı nasos stansiyasının boru xəttində 55 metr təmir



işləri görülərək, boru xətlərində olan nasazlıqlar aradan qaldırılıb.

Qeyd edək ki, Goranboy Suvarma Sistemləri İdarəsi tərəfindən 2023-cü ilin 6 ayı ərzində torpaq su kanallarında 330000 kub metr lildən və kolkosdan təmizləmə işləri görülüb, o cümlədən 32000 kub metr çay məcralarında tənzimləmə işləri həyata keçirilib.

***Hüseyn***

# Göygöldə vəzifəli şəxs cərimələndi

***Göygöl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər keçirilib.***

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan "Unikal"a verilən məlumata görə, rayonun Yeni Zod ərazisində keçirilən belə tədbir zamanı sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkar olunub. İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduğuna görə kənd bələdiyyəsinin sədri barəsində inzibati tənbeh tədbiri tətbiq edilib.



Bundan başqa monitorinqlər zamanı rayonun Aşıqlı, Quşqara, Qızılca kəndlərində fəaliyyət göstərən ümumilikdə 4 kafe-restoranda məişət tullantılarının urnalardan kənara atılması müəyyən edilib, obyekt sahibləri ilə profilaktiki söhbət aparılıb və barələrində İnzibati Xətalar Məcəlləsinin 266.3-cü (Məişət tullantılarının tutumlardan kənar yerlərə atılmasına görə) maddəsi ilə protokol tərtib olunub.




# Əbədiyaşar ömür

***Balaqardaş Fərhad oğlu Vəliyev İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərərək tarix yazanda 18 yaşında idi. O, uşaqlıqdan Vətəninə ürəkdən bağlanmışdı. Odur ki, Balaqardaş yetkinlik yaşına çatanda dünyaya göz açdığı Masallı rayonunun Viləş kəndində onun əxlaqına, vətənpərvərliyinə heyran olublar. Vətən üçün yararlı övlad kimi el gözündə sevilib, ucalıb.***

Balaqardaş 2020-ci ilin aprelində həqiqi hərbi xidmətə yola düşüb. Amalı da doğma Azərbaycanın hər qarışını qorumaq, mübarizliklə sona qədər döyüşərək yağı düşməndən qisasını almaq olub. Məhz buna görə ilk gündən Vətənə olan borcunu vicdanla yerinə yetirib, hərbi təlimlərdə fəal iştirak edərək bütün sınaqlardan uğurla keçib. Həm də bu cəsurluğu, çevikliyi zabitlərin, əsgərlərin yanında ona böyük hörmət və ehtiram qazandırıb.

Həmişə Vətənin taleyini düşünən Balaqardaş İkinci Qarabağ müharibəsi başlanan kimi özünü odun içinə atıb. Ölümün gözünə dik baxan igid əsgər erməni dığalarına qarşı mərdliklə döyüşüb və onlara ağır itkilər verib. Balaqardaş döyüşdən-döyüşə atıldıqca Vətənə məhəbbət, düşmənə nifrət sanki ona yeni güc və qüvvə verirdi. Düşmənin kabusuna dönərək qələbə sorağı ən ağır savaşlardan gəlib. Talış kəndi istiqamətində gedən döyüşlərdə ayağından yaralanır, müalicə üçün hospitala göndərilib. Qısamüddətli müalicədən sonra şəxsi müraciəti ilə yenidən yağıya qan qusdurmaq üçün döyüş meydanına qayıdıb. Vətən yolunda canını, qanını belə əsirgəməyən igid əsgər oktyabrın birində Hadrut istiqamətində gedən döyüşlərin birində düşmənin snayper atəşinə tuş gəlib və onun ölümü əsl qəhrəmanlıq məktəbi kimi tarixə yazılıb. 18 yaşda Balaqardaşın əbədiyyətə qovuşması həm də göstərir ki, Vətən sevgisi hər şeydən ucadır, onu heç bir şey əvəz edə bilməz.

Qəhrəmanlığı gələcək nəsillər üçün nümunəvi örnək olan Balaqardaş Vəliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Bəli, Masallı elinin igid oğlu Balaqardaş Vəliyevin ömür yolu nə qədər qısa olsa da, ucaldığı müqəddəslik zirvəsi ilə Vətəninə, millətinə başucalığı oldu...

***Zəfər Orucoğlu, AJB üzvü***

# Tullantıları yandıranlar cəzalandırılıb

***Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı Bərdə rayonunun Dəymədağıldı və Uğurbəyli kəndlərinin ərazilərində fəaliyyət göstərən "OBA" və "Şuşa" marketlərin yaxınlığında tullantıların qalaqlanaraq yandırılması faktları müəyyən edilib.***

Bu barədə Dövlət Ekoloji Təhlükəsizlik Xidmətindən məlumat verilib. Xidmət rəsmisi Xaliq Mirzəyev bildirib ki, araşdırma zamanı tullantıların sözügedən marketlərin əməkdaşları tərəfindən əraziyə atılaraq yandırıldığı məlum olub.

"Faktlarla bağlı marketlərin səlahiyyətli nümayəndələri İlqar İbişov və Hacı Hacızadə barəsində akt, protokol tərtib olunub və qanunamüvafiq tədbir görülüb. Ərazilər tullantılardan təmizlənib".

## Erməni batalyonu Donetskdə məhv edildi



***"Pyatnaşka" beynəlxalq briqadasının tərkibində fəaliyyət göstərən erməni "Arbat" batalyonu Donetsk ətrafında darmadağın edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukraynanın "Telegram" kanalları məlumat yayıb.

Qeyd olunur ki, batalyon iki gün əvvəl Rusiyanın Ukraynada keçirdiyi "xüsusi əməliyyat"da iştirak etməyə başlayıbmış.

*Gülayə Mecid*

## Rusiya İstanbuldakı heyətini geri çağırdı

***Rusiya "Taxıl sazişi"ndən çıxdıqdan sonra daha bir kritik addım atıb.***



"Unikal" Türkiyə Milli Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, Rusiya İstanbuldakı "Taxıl sazişi" əməliyyatını həyata keçirən Birgə Koordinasiya Mərkəzindən şəxsi heyətini geri çəkib.

Xatırladaq ki, Rusiya ötən həftə "Taxıl sazişi"ndən çıxdığını açıqlayıb. Bundan sonra prezident Rəcəb Tayyib Ərdoğan məsələni rusiyalı həmkarı Vladimir Putinlə şəxsən müzakirə edəcəyini bildirib.

*Nuranə Abbasova*

## "Polşanın aqressivliyi Rusiyanın diqqətini artırmağı tələb edir" - Peskov



***Polşanın davam edən hərbiləşdirilməsi Moskvanı narahat edir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

Kreml sözçüsü Varşavanın hərbi briqadaları şərq sərhədinə köçürməsi ilə bağlı bəyanatlara münasibət bildirib.

"Polşanın aqressivliyi, həm Belarusa, həm də Rusiya Federasiyasına düşmən münasibəti təbii ki, diqqətin artmasına səbəb olur".

*Gülayə*

## PKK-çı Yunanıstana qaçarkən yaxalandı

***Türkiyənin Ədirnə şəhərində "Terror təşkilatına üzv olmaq" ittihamı ilə barəsində cinayət işi açılan şəxs Yunanıstana qaçmaq istəyərkən saxlanılıb.***




"Unikal" xəbər verir ki, saxlanılan şəxs uzun illər PKK terror təşkilatında fəaliyyət göstərib və hazırda onunla bağlı araşdırma aparılır.

## İsrail F-35-lə İrana mesaj verdi



***İsrail ordusu F-35 qırıcılarından ilk dəfə olaraq güclü raket əleyhinə bombaları uğurla atıb.***

"Unikal" xəbər verir ki, bu barədə İsrail televiziyasının 14-cü kanalı açıqlayıb. Məlumata görə, İsrail ordusunun bu hərəkəti birbaşa İran İslam Respublikasına mesaj olub.

Qeyd edək ki, Amerikadan sonra İsrail dünyada bunu sınaqdan keçirən ikinci ölkədir.

*Ağarza Elçinoğlu*

# "Üçtərəfli görüş heç bir konkret nəticə vermədi" - Paşinyan

***"Brüsseldə keçirilən üçtərəfli görüş heç bir konkret nəticə vermədi".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin növbəti iclasında deyib.

"Bizim inancımız belə idi və belədir ki, beynəlxalq müdaxilə və mexanizmlər olmadan bu dialoq effektiv ola bilməz", - deyə Paşinyan bildirib.

Qeyd edək ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bir müddət öncə açıqlamasında sözügedən görüşün effektiv olduğunu demişdi.

*Ağarza Elçinoğlu*

## Türkiyə ilə BƏƏ arasında 50 milyard dollarlıq əməkdaşlıq

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri zamanı Əbu-Dabi ilə Ankara arasında 50,7 milyard dollarlıq bir sıra əməkdaşlıq sazişləri imzalanıb.***

"Unikal" xəbər verir ki, imzalanma mərasimi Ərdoğanın BƏƏ prezidenti Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşündən sonra baş tutub və bu görüşdə tərəflər yüksək səviyyəli strateji şuranın yaradılması barədə razılığa gəliblər.

Ümumilikdə tərəflər 15 saziş və anlaşma memorandumu imzalayıblar.



## Bağdadda yandırılan İsveç səfirliyi fəaliyyətini dayandırdı

***İsveçin Bağdaddakı səfirliyi yanğından sonra növbəti xəbərdarlığa qədər fəaliyyətini dayandırıb.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, bu barədə Skandinaviya krallığı səfirliklərinin rəsmi saytında dərc edilmiş məlumatda deyilir.



"İyunun 29 və 30-da və iyulun 20-də Bağdaddakı İsveç səfirliyi qarşısında nümayişlər keçirildiyinə görə səfirlik növbəti xəbərdarlığa qədər ziyarətçilər üçün bağlıdır. Pasportların verilməsi və fövqəladə hallar üçün sənədlərin hazırlanması dayandırılıb", - deyə məlumatda bildirilir.

## Erməni generalın həbs müddəti uzadıldı

***KTMT-nin Kollektiv Təhlükəsizlik Şurasının sabiq baş katibi, Ermənistan ordusunun Baş Qərargahının sabiq rəhbəri, general-polkovnik Yuri Xaçaturovun oğlu, 3-cü ordu korpusunun sabiq komandiri general Qriqori Xaçaturovun yenidən məhkəməsi keçirilib.***

"Unikal" xəbər verir ki, məhkəmənin qərarı ilə Xaçaturovun həbs müddəti daha 3 ay uzadılıb.

Qeyd edək ki, Xaçaturov barəsində vəzifə səlahiyyətlərindən istifadə etməklə cinayət yolu ilə əldə edilmiş daşınmaz əmlakın leqallaşdırılması (çirkli pulların yuyulması) ilə bağlı iş başlanıb.

Həmçinin, Q.Xaçaturov 2020-ci ilin İyul döyüşlərinin birbaşa təşkilatçısı və icraçısı sayılır. Belə ki, Tovuza hücum əməliyyatına rəhbərlik edən şəxslərdən olub.

*Gülayə*



## Pakistanda partlayış və atışma oldu - Yaralılar var

***Pakistanın şimal-qərbindəki Hayber-Pahtunhva əyalətinin Bara rayonunda partlayış və atışma olub.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, nəticədə azı səkkiz polis əməkdaşı yaralanıb.

Partlayış polis idarəsi və təhlükəsizlik qüvvələrinin postu yaxınlığında baş verib. Partlayışdan sonra asayiş keşikçiləri ilə terrorçular arasında şiddətli atışma başlayıb. İlkin versiyaya görə, partlayış kamikadze tərəfindən törədilib. Bütün yaralılar ən yaxın xəstəxanaya çatdırılıb.

Partlayış nəticəsində hüquq-mühafizə orqanlarının əməkdaşları arasında itkilərin ola biləcəyini istisna edilmir. Hücum zamanı polis idarəsinin damı uçub. Xilasetmə qrupları dağıntılar altında qalan insanları axtarır.

*Nuranə Abbasova*

## Türkiyə və Yunanıstan birgə hərbi təlim keçirdi

***Türkiyə hərbi dəniz qüvvələrinin gəmiləri Şimali Atlantika Alyansının (NATO) "Daimi Dəniz Xidməti Qrupu-2" birgə təlimində iştirak edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Müdafiə Nazirliyi məlumat yayıb.

Təlim alyansa üzv üç dövlətin - Türkiyə, İngiltərə və Yunanıstanın iştirakı ilə keçirilib.

"Təlim Türkiyə-Yunanıstan hərbi əməkdaşlığının inkişafına sərf edilən səyləri və NATO-nun bu məsələdə faydalı olmaq istəyini əks etdirdi", - deyə yunan mətbuatı yazıb.

*A.Elçinoğlu*

# 7 ilə tarix yazan klub - “Qarabağ”ın ikinci rəqibi




***Çempionlar Liqasının ikinci təsnifat mərhələsində “Qarabağ”ın rəqibi olan Polşanın “Rakuv” klubu olduqca maraqlı tarixçəyə sahibdir. “Qafqazinfo” xəbər verir ki, 1921-ci ildə yaranan klub hazırkı vəziyyətə gəlmək üçün uzun yol qət edib.***

Rakov şəhərində əsası qoyulan bu komanda qeydiyyata düşə bilmədiyi üçün 1925-ci ildə dağılır. Bundan cəmi iki il sonra isə “Robotniczy Klub Sportowy” (İşçi İdman Klubu) adı ilə yenidən fəaliyyətə başlayır.

1928-ci ildə Rakov şəhəri Çenstoxova rayonuna çevrilir. Klub isə Polşa Sosialist Partiyasının himayəsi altında fəaliyyətinə davam edir, sponsor isə şəhərdəki polad zavodu olur. İkinci yaradılışından 10 il sonra “Rakuv” çempionatın A kateqoriyasına yüksələ bilir. Dünya Müharibəsi zamanı futbol yarışları dayandığı üçün çenstoxovalılar da heç bir liqada çıxış etmir. Müharibə bitdikdən sonra fəaliyyətinə yenidən başlayan “Rakuv” 1962-1966-cı illərdə Polşa İkinci Liqasında çıxış edir. 1967-ci ilin iyulunda “Rakuv” ölkə kubokunun finalına çıxır və burada Krakov “Visla”sına 0:2 hesabı ilə uduzur. Cəmi 5 il sonra yenidən kubokda uğurlar qazanılır. Komanda yarımfinala qədər gəlir, burada isə Varşava “Legiya”sı ilə dueldən qalib ayrıla bilmir. 1993-cü ildə “Rakuv” yeniyetmələrdən ibarət komanda ilə Polşa İkinci Liqasında 2-ci yeri turur və 1994-cü ildən Birinci Liqada mübarizə aparmağa başlayır. 4 mövsümlük yüksək liqadan sonra klub 1998-ci ildə komanda 4-cü liqaya qədər düşür.

Aşağı liqalarda keçən 17 illik enişli-yoxuşlu yolların ardından 2016-cı ildə qarşıda olacaq böyük uğurların təməli qoyulur.

Komanda Polşa ikinci divizionuna - Birinci Liqaya qayıdır. Burada çempionluq titulu qazanılır. 2019-2020-ci il mövsümündə “Rakuv” 21 illik fasilədən sonra əsas liqaya - Ekstraklasaya geri dönür. 2020-2021-ci il mövümündə klub çempionatı ikinci yerdə başa vurur və tarixində ilk dəfə avrokuboklara vəsiqə qazanır. UEFA Avropa Konfrans Liqasının təsnifatlarında oynayır. Həmin mövsüm komanda ölkə kubokuna da sahib çıxır. 2021-ci ildə “Rakov” Polşa Superkubokunda ölkənin ən titullu klubu Varşava “Legiya”sını penaltilərlə məğlubiyyətə uğradır və mövsümdə ikinci kubokunu qazanır.

Konfrans Liqasında da komanda yaxşı addımlayır Litvanın “Suduva” klubu üzərində qələbədən sonra Rusiya “Rubin”i də məğlub edilir. Lakin Belçikanın “Gent” klubu ilə mübarizədə polşalılar qələbə qazana bilmirlər. Səfərdəki 0:3 hesablı məğlubiyyətlə mübarizəni dayandırmalı olurlar.

Növbəti mövsüm də “Rakuv” üçün uğurlu olur. Onlar ardıcıl ikinci dəfə ölkə kubokuna sahib çıxırlar və həlledici görüşdə “Lex” 3:1 hesabı ilə məğlub edilir. Çempionluq üçün isə 5 xal çatmır.

Nəhayət 2023-cü il mayın 7-də “Rakuv” tarixinin ən uğurlu gününü yaşayır. Onlar ilk dəfə Polşa Ekstraklasasını qazanırlar və 7 il ərzində tarix yazırlar.

Qısa müddətdə böyük uğurlar qazanan çenstoxovalıların inkişafında əsas pay sahibi isə məşqçiləri Marek Papşundur. 2016-cı ildən klubun “sükanı arxası”nda olan çalışdırıcı çempionluqdan sonra komandadan ayrılıb.

Oynadığı futbolla, heyətindəki bəzi futbolçularla Avropa nəhənglərinin diqqətini çəkən “Rakuv” artıq gücünün yarısını itirib. Papşunun gedişindən sonra bir neçə oyunçu da klubdan ayrılmaq qərarı verib. Çempion olan heyət qalsaydı, polşalıları “Qarabağ” üçün çox ciddi rəqib saymaq olardı. Amma bu cür itkilər və yeni gələnlərin adaptasiya mərhələsi klub üçün ciddi itki sayıla bilər. Elə Polşa mətbuatı da bu amili qabardır. Məhz bu səbəbdən həmkarlarımız ötən mövsüm “Lex”ə 5 qol vuran Ağdam klubunu əsas favorit sayırlar.

# "Neftçi" və "Sabah"ın rəqibləri müəyyənləşir

***Konfrans Liqasında 1-ci təsnifat mərhələsinə yekun vurulacaq. Azərbaycan klublarının 2-c mərhələdəki potensial rəqibləri cavab matçlarına çıxacaqlar.***



”Sabah”ın mümkün rəqiblərindən olan Latviya RFŞ-i Şimali Makedoniya təmsilçisi ”Makedoniya”nı qəbul edəcək. Qarşılaşma Bakı vaxtı ilə saat 19:30-da start götürəcək. Latviyadakı ilk oyunda meydan sahibləri qələbə qazanıb - 1:0. Cütün qalibi növbəti mərhələdə ”Sabah”la qarşılaşacaq.

”Neftçi”nin potensial rəqibləri olan Belarusun ”Dinamo”si (Minsk) isə Bosniya və Herseqovina ”Jelezniçar”ı ilə üz-üzə gələcək. Görüş UEFA-nın qərarına əsasən, Bakıda ”Azersun Arena”da oynanılacaq və saat 21:00-da başlayacaq. İlk matç bərabərliklə yekunlaşıb - 2:2. Cütün qalibi 2-ci mərhələdə”Neftçi” ilə qarşılaşacaq.

# Arda Turan yeni görünüşü ilə təəccübləndirdi



***“Eyüpspor”un baş məşqçisi Arda Turanın məşq zamanı çəkdirdiyi foto dünya mətbuatında gündəm olub.***

“Unikal” Türkiyə mediasına istinadən xəbər verir ki, bir çox əcnəbi futbol azarkeşi “Barselona”nın keçmiş futbolçusunun şəklini şərh edib. Onlar olduqca yaşlı görünən Ardanın Messi ilə yaşıd olduğunu qeyd ediblər.

Futbolsevərlər “46 yaş kimi görünür”, “Bu, real ola bilməz” deyə şərhlər yazıblar.

***Nuranə Abbasova***

# ASAPES-in tələbəsi mükafata layiq görüldü



***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Sambo Federasiyasının birgə təşkilatçılığı ilə 14-16 iyul 2023-cü il tarixlərdə SSRİ-nin və Azərbaycan Respublikasının Əməkdar Məşqçisi Əbülfəz Əliyevin xatirəsinə həsr olunmuş yeniyetmələr və gənclər arasında sambo güləşi üzrə Azərbaycan kuboku keçirilib.***

”Unikal” xəbər verir ki, yarışda ASAPES SABAH qrupları Məşqçilik ixtisasının III kurs tələbəsi Hacılı Rəhman iştirak edib.

O, +98 kq çəki dərəcəsində III yerə layiq görülüb. Bununla da ASAPES-li gənclər milli yığma komandaya dahil olub.

# Kuadrado rəsmən "İnter"də



***”Yuventus”un sabiq yarımmüdafiəçisi Xuan Kuadrado rəsmən ”İnter”ə keçib.***

Qol.az xəbər verir ki, bu barədə İtaliya klubunun mətbuat xidməti məlumat yayıb. Tərəflər arasında bir il müddətinə (2024-cü il iyunun sonuna qədər) müqavilə imzalanıb. Kolumbiyalının ”İnter”dəki maaşı bonuslar nəzərə alınmadan illik 2 milyon avro olacaq.

2022/2023 mövsümündə Kuadrado ”Yuventus”un heyətində bütün yarışlarda 47 oyuna çıxıb, 2 qol vurub və 4 qolun ötürməsini verib. Futbolçunun Turin klubu ilə müqaviləsi bu il iyunun sonunda başa çatıb, tərəflər müqaviləni yeniləməyib.

# Vüsal İsgəndərlinin komandası Ermənistan klubuna qarşı



***Azərbaycanlı futbolçu Vüsal İsgəndərlinin də çıxış etdiyi Albaniya ”Eqnatiya” bu gün Konfrans Liqasının 1-ci təsnifat mərhələsində cavab oyununu keçirəcək.***

Komanda ilk görüşdə səfərdə 1:1 hesablı heç-heçə etdiyi ”Ararat” ilə üz-üzə gələcək. Matç Bakı vaxtı ilə saat 22:00-da başlayacaq.

Qeyd edək ki, bu ay ”Eqnatiya”ya keçən V.İsgəndərli ”Ararat” ilə ilk oyuna ehtiyat oyunçular skamyasında başlayıb O, 59-cu dəqiqədə meydana daxil olub.

22:00. “Eqnatiya” (Albaniya) - “Ararat” (Ermənistan)
İlk oyun - 1:1